www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-24 avqust 2018-ci il Çərşənbə № 178 (7067) Qiymәti 60 qәpik

Xəbər

**Bu gün Azərbaycan Qurban bayramını qeyd edir**

yazısı səh.3-də

Gündəm

**İrana qarşı ABŞ sanksiyaları: Bakı qoşulsun, qoşulmasın?**



Ekspert hələ ki bunu birmənalı söyləməyin çətin olduğunu deyir...

yazısı səh.9-da

**Bakıda kirayə mənzillərin qiymətləri qalxıb - əməkdaşımız "ev bazarı"ndakı son durumdan yazır**

yazısı səh.10-da

**Şadlıq saraylarında "ciblərinizi möhkəm tutun" elanı**

yazısı səh.14-də

**Türkiyə atom silahı hazırlaya bilər - Qərbdə təşviş**

yazısı səh.2-də

**Merkel regiona səfərinə niyə Bakıdan yox, Tiflisdən başlayır?**

yazısı səh.12-də

**Rusiyada ÜAK-sız qalan azərbaycanlılar: yenidən təşkilatlanma gecikir**

yazısı səh.12-də

**Manaf Ağayevin başı dərddə - müğənniyə cinayət işi açıla bilər**

yazısı səh.14-də

**Bu gün "Qarabağ" "pley-off" sınağına çıxır**

yazısı səh.15-də

**Azərbaycanlı tarixçi-araşdırmaçı: "Almaniya kansleri ilə buluşmaq fürsətim olsa..."**

yazısı səh.7-də

**Bakıya küçə təmizləyən maşınlar gətirildi: süpürgəçilərə təhlükə sovuşur, amma...**

yazısı səh.10-da

**"Azərbaycanda dollara tələb artacaq" - iqtisadçı ekspert səbəbdən danışdı**

yazısı səh.5-də

# AZƏRBAYCAN QƏRB VƏ RUSİYANIN ÇARPAZ DİQQƏTİNDƏ - MERKEL BAKIYA, ƏLİYEV MOSKVAYA, PAŞİNYAN...

Azərbaycan prezidentinin Rusiya səfəri ən çox düşmən ölkəni rahatsız edəcək - səbəb; Əliyev-Putin görüşündə əsas mövzu nə olacaq?; Analitiklər deyir ki...




yazısı səh.8-də

# Elektrik sayğaclarına müdaxilə ilə bağlı yeni və sensasion iddialar

Bu işin xüsusi haker qrupu tərəfindən ölkəmizə qəsd projesi olaraq həyata keçirildiyi deyilir; ekspert bildirir ki, "Azərişıq"ın sayğaclarına kənardan müdaxilə mümkündür; "Şübhələrin əsası var..."

yazısı səh.6-da



*Seyfəddin Əsəd:*

**"Rahat şəkildə 150 il yaşamaq olar, əgər..."**

yazısı səh.13-də



Sergey Markov

*Rusiyalı politoloq:*

**"Paşinyan öz postunda müvəqqətidir"**

yazısı səh.11-də



**Qubad İbadoğlunun dediyi kritik 10 gün: Türkiyə böhranı adladımı?**

yazısı səh.4-də



## Türkiyə atom silahı hazırlaya bilər - Qərbdə təlaş

**"Türkiyə ilə onun NATO-dakı müttəfiqi ABŞ arasında gərginliyin artması fonunda Ankara Qərbdən üz döndərərək, gec və ya tez öz nüvə silahını yarada bilər".**

Virtualaz.org bildirir ki, bunu Almaniyanın sabiq xarici işlər naziri Ziqmar Qabriel deyib. O, Avropanı Türkiyəni öz orbitində saxlamaq üçün bütün səylərindən istifadə etməyə çağırıb.

Türkiyənin NATO-dan gedişi ilə bağlı suala Qabriel belə cavab verib: "Qorxuram ki, sonda Türkiyədəki millətçilər İran və Şimali Koreyada olduğu kimi, özlərini qorumaq üçün nüvə silahı hazırlasınlar".

Avropa Birliyinə müraciət edən Qabriel bildirib ki, Almaniya və Avropa ABŞ prezidenti Donald Trampın Ankaraya qarşı münasibətini dəstəkləmədiklərini Türkiyəyə başa salmalıdırlar.

## Azərbaycan alman deputatın ölkəyə girişinə qadağa qoydu

**Almaniya kansleri Angela Merkeli müşayiət edəcək deputatlardan birinə Azərbaycana giriş qadağası qoyulduğu məlum olub. Modern.az "Bild" nəşrinə istinadən xəbər verir ki, Merkelin "Xristian-Demokrat ittifaqı" Partiyasının deputatı Albert Vaylerin Azərbaycanın qara siyahısında olduğu üçün ölkəyə səfəri qadağan olunub.**

Vaylerin 2014-2016-cı illərdə Azərbaycanın razılığı olmadan işğal olunmuş Qarabağ torpaqlarına səyahət etdiyi üçün qara siyahıya salındığı məlum olub. Almaniya tərəfi deputatın bölgəyə səyahəti üçün Azərbaycan hökuməti ilə danışıqlar aparsa da, rəsmi Bakı qətiyyət göstərərək razılıq verməyib.

Qeyd edək ki, Albert Vaylerin Cənubi Qafqaz ölkələrinə səfəri zamanı kansler Angela Merkeli müşayiət edəcəyi bildirilirdi.

## Məhərrəm ayının başlama vaxtı açıqlandı

**"Bu il Azərbaycanda Məhərrəm ayı sentyabrın 11-dən başlayacaq, 10 gündən sonra isə Aşura olacaq. Bununla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tədbirlər planı icra olunacaq".**

"Yeni Müsavat" report-a istinadən xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, plana uyğun olaraq, görüşlər keçiriləcək, müzakirələr aparılacaq: "Məhərrəmlik ayında insanlar məscidlərdə dini ayinləri müasir dövrün tələblərinə uyğun icra edirlər. Hesab edirəm ki, bu il də bununla əlaqədar heç bir problem olmayacaq. Dini ayinlər məscidlərin imamları tərəfindən icra edilir. Həmin imamların həm namazı idarə etməsi, həm də xütbələr zamanı söylədiyi fikirlər İslami dəyərlərə söykənir. Məhərrəmlik ayındakı mərasimlərdə bəziləri xurafat elementlərini təkrarlamaq istəyir, bunlar isə yolverilməzdir".

M.Qurbanlı qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsinin çağırışı ilə hər il qanvermə aksiyası keçirilir: "Bu çağırışlar son illərdə Türkiyə və İranda da tətbiq olunur. Yəni zəncir vurmaq, qan çıxarmaq, özünə xətər yetirmək kimi əməllər qəbul edilən deyil və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir. Biz də bu əməllərin əleyhinəyik. Qafqaz Müsəlmanları İdarəsi də bu cür çağırışlar edir. Bunlar olacaqsa, onlar dini ayinlərin icrasında yol verilən nöqsan olacaq".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Atasını öldürüb, evi yandıran şəxsin məhkəməsi - daha iki nəfər də həbs edilib



**Atasını bıçaqlayaraq öldürüb, sonra isə evi yandıran şəxs hakim qarşısına çıxarılıb. Dəhşətli qətlə görə daha iki nəfər həbs edilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəsində qətl törətməkdə ittiham edilən 1997-ci il təvəllüdlü Elməddin İsmayılov, 1992-ci il təvəllüdlü Nəcməddin İsmayılov və 1976-cı il təvəllüdlü Vəlican Dadaşovun cinayət işi üzrə məhkəmə hazırlıq iclası keçirilib.**

Hazırlıq iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Elməddin İsmayılovun ilk cinayət əməlidir, subaydır. Anket məlunatlarında məlum olub ki, Vəlican Dadaşov daha əvvəl bir neçə dəfə məhkumluq həyatı yaşayıb. Nəcməddin İsmayılovun da daha əvvəl də oğurluğa görə hakim qarşısına çıxarıldığı və şərti cəza aldığı məlum olub. Məlum olub ki, təqsirləndirilənlərdən yalnız Elməddin özünü günahkar bilir. Digər iki şəxs özünü günahkar bilmir. Hətta istintaq dövründə Vəlican Dadaşovla digərləri arasında mübahisələr də yaranıb. Bu səbəbdən də məhkəmə zalında onlar ayrı-ayrı dəmir barmaqlıqlar arxasına salınıblar.

Məhkəmənin baxış iclası avqustun 31-nə təyin edilib.

Bildirək ki, Daxili İşlər Nazirliyi Bakıda oğulun atasını bıçaqlayaraq qətlə yetirdikdən sonra meyitini yandırması barədə məlumat yayıb. Məlumata görə, polis və prokurorluq orqanları əməkdaşları tərəfindən həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində Xəzər rayonu ərazisində törədilən qətlin üstü "isti izlər"lə açılıb və cinayəti törətməkdə şübhəli bilinən şəxslər tutularaq istintaqa cəlb ediliblər.

2016-cı ilin fevral ayının 1-də Xəzər rayonu Zirə qəsəbəsinin bağlar sahəsində Pirallahı qəsəbə sakini Azər Əliyevə məxsus bağ evində yanğın baş verib, nəticədə yanar konstruksiyalar yanıb. Rayon polis və prokurorluq orqanları əməkdaşları tərəfindən hadisə yerinə keçirilən baxış zamanı oradan yanmış meyit tapılıb. Mərhumun İbrahim Əliyev olması və onun kəsici-deşici alətlə qətlə yetirilməsi müəyyən edilib. Hadisənin İbrahim Əliyevin oğlu Elməddin İsmayılov tərəfindən törədilməsinə əsaslı şübhələr yarandığından saxlanılıb. Əməliyyat tədbirlərinin davamı olaraq cinayətin digər iştirakçıları da müəyyən edilib və qəsəbə sakinləri, əvvəllər məhkum olunmuş Vəlican Dadaşov və Nəcməddin İsmayılov da saxlanılaraq istintaqa cəlb ediliblər.

❑ **İlkin Muradov, Musavat.com**

## Separatçıların "Avropa kuboku" oyunları Qarabağda keçiriləcək

**"Müstəqil Futbol Federasiyaları Konfederasiyası" (ConIFA) tanınmayan dövlətlər arasında növbəti Avropa çempionatının Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində keçiriləcəyini təsdiq edib. Teleqraf.com xəbər verir ki, ConIFA Qarabağın qanunsuz oyunları 2019-cu ildə ev sahibliyi edəcəyini açıqlayıb. Turnir iyun ayında Xankəndində keçiriləcək.**

ConIFA prezidenti Per-Anders Blind dəqiq tarixin yaxın günlərdə açıqlanacağını bildirib. Blind bu məqsədlə bir müddət əvvəl Qarabağa gəldiyini və şəraitlə tanış olduğunu diqqətə çatdırıb. Turnirdə 12 komanda iştirak edəcək.

Qeyd edək ki, 2013-cü ildə qurulan "Müstəqil Futbol Federasiyaları Konfederasiyası" rəsmi olaraq FIFA-nın tərkibində olmayan "milli futbol komandaları"nı birləşdirir. 2016-cı ildə "dünya kuboku" Gürcüstanın işğal edilmiş Abxaziya bölgəsində keçirilib. Finalda "Abxaziya respublikası" "Pəncab"ı məğlub edərək qalib olub.



## Azərbaycanlı fəhlə Türkiyədə quduzluqdan öldü

**Azərbaycandan Türkiyəyə pomidor tarlasında mövsümi işçi olaraq işləməyə gedən 42 yaşlı Rauf Əhmədov quduzluqdan ölüb. Virtualaz.org Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, Azərbaycan vətəndaşı bir neçə gündür saxlanıldığı Balıkesir xəstəxanasında həyatını itirib. Onu Türkiyəyə getməzdən əvvəl Azərbaycanda it dişlədiyi məlum olub.**

Xəbərə görə, 2 uşaq atası Rauf Əhmədov təxminən 3 ay əvvəl Azərbaycandan Türkiyənin Çanakkala bölgəsinə, Bayramiç qəsəbəsinə qohumlarının yanına gedib və orada pomidor tarlalarında mövsümi işçi kimi çalışmağa başlayıb. Avqustun 12-də o, baş ağrısı və qollarında uyuşma səbəbindən Bayramiç Dövlət Xəstəxanasının təcili yardım xidmətinə müraciət edib. Orada müayinə zamanı ağrıları daha da artan Rauf Əhmədovu Çanakkala Mehmet Akif Ersoy Dövlət Xəstəxanasına aparıblar.

Xəstəxanada müayinələrdən sonra Əhmədova quduzluq diaqnozu qoyulub. O, avqustun 18-də Balıkesir Atatürk Şəhər Xəstəxanasına köçürülüb və orada qarantində saxlanılıb. Rauf Əhmədovu bundan əvvəlki xəstəxanada müayinə edən tibb personala və onunla təmasda olmuş digər şəxslərə isə quduzluq əleyhinə vaksin vurulub.

Balıkesir xəstəxanasında 4 gün qarantində saxlanılan Rauf Əhmədov dünən keçinib. Onun cənazəsini Azərbaycana göndərəcəklər.

Əhmədovu Azərbaycanda hansı şəraitdə it dişlədiyi barədə məlumat yoxdur. Quduzluq özünü bir neçə gün sonra, hətta aylar sonra büruzə verə bilir.

## Dünyada 2 milyard yoxsul insan var

**Dünya Humanitar Yardım Günü münasibətilə hazırlanan hesabata görə, hazırda dünyada 2 milyard insan yoxsulluq, 753 milyon isə bu həddən də aşağı səviyyədə yaşayır. Bu insanların böyük əksəriyyəti quraqlıq, silahlı münaqişələr və təbii fəlakətlərdən əziyyət çəkənlərdir.**

"AzərTAc" BMT-nin saytına istinadla xəbər verir ki, 2017-ci ildə 134 ölkədə 201 milyon insana humanitar yardım göstərilib. Hesabatda bildirilir ki, silahlı münaqişələr nəticəsində Yəməndə 20,7 milyon, Suriyada isə 13,7 milyon nəfərin aclıq həddində olduğu aşkar edilib.

Ötən illər 3,5 milyon suriyalı qaçqına sığınacaq verən Türkiyədə humanitar yardıma ehtiyacı olanların sayı 12,8 milyona çatıb. Hesabatda Efiopiya, İraq, Nigeriya, Konqo Demokratik Respublikası, Sudan, Əfqanıstan, Somali, Keniya, Haiti, Kolumbiya, Çad, Mali, Ukrayna, Kamerun, Livan, Pakistan, Burundi ən çox yardıma ehtiyacı olan ölkələr sırasında ilk yerləri tuturlar. Bu ölkələrin əksəriyyətində silahlı münaqişələr mövcuddur.

Hesabata görə, 2 milyard insanın gündəlik gəliri 3,2 dollar olduğu halda, 7,53 milyon nəfər gündə cəmi 1,9 dollar qazana bilir. 2017-ci ildə məcburi köçkünlərin sayı isə 2,9 milyon nəfər artaraq 68,5 milyona çatıb. BMT və digər beynəlxalq təşkilatların göndərdikləri humanitar yardımların 60 faizi 10 ölkənin, o cümlədən 14 faizi Suriyanın, 9 faizi isə Yəmənin payına düşüb. Qaçqınları qəbul edən Türkiyə və Yunanıstan da bu onluğa daxildir. Humanitar donor kimi Türkiyə özü qaçqınlara 8 milyard dollar vəsait ayırıb. Donorlar arasında sonrakı yerləri ABŞ (6,68 milyard dollar) və Almaniya (2,99 milyard dollar) tutur. Ümumilikdə, 2017-ci ildə qlobal humanitar yardımın həcmi 901 milyon dollar artaraq 27,3 milyarda çatıb. Fərdi donorların humanitar yardımları isə 6 milyard dollar təşkil edib.

**Bu gün Azərbaycanda mübarək Qurban bayramı qeyd olunur. Qanunvericiliyə əsasən, müqəddəs bayram bu il ölkəmizdə 22-23 avqust tarixlərinə təsadüf edib. Beləliklə, iki gün qeyri-iş günüdür. İlk bayram namazı isə bu gün saat 08:00-da Bakının "Əjdərbəy" məscidində, saat 09:00-da isə "Təzəpir" məscidində qılınacaq.**




# Bu gün Azərbaycan Qurban bayramını qeyd edir

## 3 gün ərzində Bakıda və bölgələrdə heyvanların satış yarmarkaları təşkil olunacaq

İki gün ərzində Azərbaycan müsəlmanları Qurban bayramını keçirib, qurban kəsib ehtiyacı olan insanlara, qohum və yaxınlara paylayacaq, uzaqda yaşayan qohumlara baş çəkəcək, yaxınlarının qəbirlərini ziyarət edəcək. Lakin maraqlıdır ki, Türkiyədə bayram artıq dünəndən başlayıb, bayram namazları qılınıb. Qardaş ölkədə avqustun 21-24-ü bayram qeyd olunur, avqustun 18-dən 27-dək isə tətildir.

**Bəs bu fərq nədən irəli gəlir? Mövzu ilə bağlı deputat Fazil Mustafa "Yeni Müsavat"a danışdı:** "Bu fərqin dini və yaxud başqa izahı yoxdur. Görünür, İranı yamsılamaqdan kənara çıxa bilmirik. Artıq dünyanın hər yerində, Ərəbistanda da, Türkiyədə də ötən gün bayram keçirilib. Bu məsələni dərindən araşdırmağa da ehtiyac yoxdur. Çünki bu məsələdə özbaşınalığın hökm sürdüyünü müşahidə edirik. Təsəvvür edin ki, ölkə prezidenti bayram münasibətilə xalqı ayın 20-də təbrik edir, bayram isə 22-də keçirilir. Rəsmi dövlətin mövqeyi ilə təyin olunan vaxt üst-üstə düşmür. Bildiyiniz kimi, ayın 20-də Ərəfə günü idi, bir gün sonra Qurban bayramı keçirildi. Bu, dini bayramdır, onu vaxtında qeyd etmək lazımdır. Ramazan bayramında da bu cür məsələ ortaya çıxır. Lakin əvvəllər belə hal yaşanmırdı, yəni bizdə keçirilən bu müqəddəs bayramlar digər ölkələrdə keçirilən bayramla üst-üstə düşürdü. Bu, izahı olmayan bir məsələdir və sual olunur ki, axı bunun nə mənası var ki, bayram gününü bir gün sonraya saxlayırıq? Heç olmasa, qardaş ölkəni örnək götürmək lazımdır. Türkiyədə bu günlərlə bağlı çox gözəl araşdırmalar var".

**Bəs tanınmışlardan kimlər qurban kəsəcək? Fazil Mustafa sorğumuza cavab olaraq bu il də qurban kəsəcəyini söylədi:** "Özüm qurban kəsə bilməsəm də, öz nəzarətim altında, güvəndiyim adama dini qaydalar əsasında qurban kəsdirirəm".

"Gündəlik Teleqraf" MMC-nin direktoru Aynur Camalqızı da ənənəvi olaraq bu il də bayram münasibətilə qurban kəsdirəcəyini bildirdi.

**Politoloq Elxan Şahinoğlu da qurban kəsməyi düşündüyün bildirdi:** "Qurban kəsmək fikrim var. Sadəcə, hazırda bağda ailəmlə istirahət edirəm. Buradan qurban ətini paylamaq çətindir. Şəhərə qayıtdıqdan sonra qurban kəsdirib tanışlara və ehtiyacı olan insanlara paylamağı düşünürəm".

**Sənətçilərdən Manaf Ağayev də qurban kəsəcəyini açıqladı:** "Əlbəttə ki, kəsdirəcəm. Hamı bu gündə çalışır ki, qurban kəsdirsin".

**Tamada Nazilə Səfərli hər il qurban kimi dəvə kəsdirdiyini dedi:** "Bizdə quzu qurbanı yeyilmir. Ona görə də dəvət kəsdirib paylayırıq, özümüz də yeyirik. Ehtiyacı olan müraciət edə bilər".

Qeyd edək ki, Qurban bayramı münasibət ilə bu gündən başlayaraq 3 gün ərzində Bakıda və bölgələrdə iri və xırdabuynuzlu heyvanların satış yarmarkaları təşkil olunacaq. Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə baş tutacaq yarmarkalara təxminən 35 min baş heyvanın çıxarılması nəzərdə tutulur. Yarmarkalar Qida Təhlükəsizliyi Agentliyinin müəyyən etdiyi məntəqələrdə təşkil olunacaq. Satış yarmarkalarının Bakı şəhərinin 32 nöqtəsində, Gəncə, Neftçala, Lənkəran, Şəki, Şirvan, Quba, Ağdaş, Şamaxı, Göyçay, İsmayıllıda keçirilməsi nəzərdə tutulur. Satış üçün nəzərdə tutulan 20 min baş heyvan KTN və Dövlət Gömrük Komitəsinin iri sahibkarlara tövsiyəsi əsasən də qonşu ölkələrdən, əsasən də Gürcüstandan gətirilib. Qonşu ölkələrdən xırdabuynuzlu heyvanların gətirilməsində məqsəd bazarda bolluq yaratmaq, qiymətləri sabitləşdirməkdir.

Bundan başqa, KTN-in müraciəti əsasında bölgələrdə fəaliyyət göstərən fermerlər yarmarkalara, ümumilikdə, 13 min baş heyvan çıxaracaq. Nazirliyin tabeliyində olan təsərrüfatlardan isə yarmarkalara təxminən 1000-1500 baş iri və xırda buynuzlu heyvanlar gətiriləcək.

Artıq KTN yanında Dövlət Baytarlıq Xidməti Qida Təhlükəsizliyi Agentliyinin müəyyənləşdirdiyi ət kəsimi və heyvan satışı məntəqələrində profilaktik məqsədlə dezinfeksiya işlərinə başlayıb. Dezinfeksiya işlərinin aparılmasında məqsəd heyvanlar arasında xəstəliklərin yayılmasının qarşısını almaqdır.

**Satış yarmarkaları aşağıdakı məntəqələrdə fəaliyyət göstərəcək:**

Bakı şəhəri üzrə: Nərimanov rayonu - Əliyar Əliyev küçəsi, 26 ("Bakı Taxıl-2" ASC-yə məxsus heyvan kəsimi məntəqəsi), Əlyar Əliyev küçəsi, 36a ("Təbriz" KM, Keşlə bazarı), Təbriz küçəsi ilə Ceyhun Hacıbəyli küçəsinin kəsişməsi ("Qarabağ" mehmanxanasının söküntü sahəsindəki avtomobil dayanacağı), Suraxanı rayonu - Hövsan-Türkan yolunun sol tərəfində yerləşən ticarət mərkəzinin yanı, Qaraçuxur qəsəbəsi , Yeni Günəşli, "V" massivi, Binəqədi rayonu - Rəsulzadə qəsəbəsi (Binəqədi şosesi), Biləcəri qəsəbəsi, Xocəsən-Biləcəri-Binəqədi yolu ("Dördyol" adlanan yer), Binəqədi qəsəbəsi, Gülüstan massivi, döngə 15 (Heyvan bazarının yanı), Cəfər Xəndan küçəsi, 54, "Oazis" restoranının yanı ("Ət pavilyonu" adlanan ərazi), Xətai rayonu - Zığ yolu ("Nargilə" adlanan yer və 5 saylı binanın yaxınlığında), Yasamal rayonu - Yeni Yasamal yaşayış massivi, Dadaş Bünyadzadə küçəsi, 7, Xiyabani küçəsi, 10c, Şərifzadə küçəsi 196, "İdeal" şadlıq sarayının həyəti, Nizami rayonu -Mehdi Abbasov və Əli Vəliyev küçələrinin kəsişməsi, Mikayıl Əliyev və Rüstəm Rüstəmov küçələrinin kəsişməsi, Səbail rayonu - 20-ci sahə (Badamdar şosesi), Bayıl bazarı, Gülbala Əliyev küçəsi, Xəzər rayonu - Qala-Pirallahı yolu, "Lambir" müəssisənin arxası, Qaradağ rayonu - Lökbatan qəsəbəsi ("Meyvəli" MMC-nin ərazisi), Aqrovest MMC (Lökbatan yolu, "Binə" ticarət mərkəzinin qarşısı), "Qoç-ət" MMC , Lökbatan qəsəbəsi, Sabunçu rayonu - Bakıxanov qəsəbəsi, Fətəliyev küçəsi 72, "Arzu" şadlıq sarayının yanı, Sabunçu qəsəbəsi, şəhər şosesi döngə 6, "Sabunçu" mərasim evinin yanı, Ramana qəsəbəsi, Şuşa şəhərciyi, "Pətək" marketin yanı, Zabrat qəsəbəsi," Azmeat" MMC, Zabrat-Kürdəxanı şosesinin sağ tərəfi, Zabrat-Kürdəxanı şosesinin sağ tərəfi, "Araz" marketin yanı, Kürdəxanı qəsəbəsi, Hüsü Hacıyev küçəsi 6, Maştağa qəsəbəsi "Kanal" marketin yanı, Bilgəh qəsəbəsi, Azərbaycan qadını küçəsi, Nardaran qəsəbəsi, Axundzadə küçəsi 107, Bakıxanov qəsəbəsi, Xəlilbəy Xasməmmədov 24 keçmiş "Sərhan" marketin yanı.

**Bölgələrdən:** Gəncə şəhəri - Yeni Gəncə qəsəbəsi, 2№-li məktəbin yanı, Neftçala rayonu - Neftçala bazarı, Məhəmməd Əsədov küçəsi, Xili qəsəbəsi, Bankə qəsəbəsi, Həsənabad qəsəbəsi, Şamaxı rayonu - Şamaxı şəhər stadionun yanı, Göyçay rayonu - Rayon ərazisində fəaliyyət göstərən heyvan satışı bazarı (Göyçayın Ağsu tərəfdən girişi), İsmayıllı rayonu - "Yaşıl market", Lənkəran şəhəri - Bakı-Astara magistral yolunun 200 kilometrliyində, Lerikə dönən yolun solunda, Şiləvar kəndi ilə üzbəüz, Ağdaş rayonu - Zeynəddin kəndi, mal bazarı, Quba rayonu - Heydər Əliyev prospekti, "Ət bazarı" deyilən ərazidə, Şirvan rayonu - 18 №-li məktəbin həyəti, 16№-li məktəbin həyəti, Şəki şəhəri - Şəki şəhərinin "Çöl yolu" adlanan ərazisində yerləşən heyvan satışı bazarı.

**❑ Bayramınız mübarək!**
**Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bayram günlərində nəqliyyat və banklar xüsusi rejimdə işləyəcək

## Avtobusların və qatarların fəaliyyətinə ciddi nəzarət ediləcək; müvafiq qurumlardan sərnişinlərin problemlə üzləşməyəcəyini dedilər...



**Avqustun 22-si və 23-ü Azərbaycanda Qurban bayramı qeyd olunacaq. Bayram münasibətilə qeyd etdiyimiz tarixlərdə Nazirlər Kabinetinin qərarına əsasən ölkə ərazisində qeyri-iş günüdür.**

Bayramın adətinə görə insanlar bu günlər ərzində qurban kəsib, yaxınlarını ziyarətə gedirlər. Məhz bu səbəbdən ictimai nəqliyyatdan və şəhərlərarası marşrutlardan istifadə edənlərin sayı artır.

Bəs müvafiq qurumlar bununla bağlı hansı tədbir görüblər? "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən "Yeni Müsavat"a bildirilib ki, qurumun Sərnişin Daşımaları Departamentinin kollektivi Qurban bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışır. Departamentin kollektivi sərnişin qatarlarında xidmət mədəniyyətinin yüksəldilməsi üçün bütün qüvvələri səfərbər edib. Qurban bayramı günlərində sərnişin sıxlığının artması ilə əlaqədar, ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün tələbata uyğun olaraq əlavə vaqonların qoşulması təmin edilir.

Qurumdan o da bildirilib ki, hələ daha öncədən məlumat yayılaraq bildirilib ki, sərnişin qatarlarına bilet satışı 10 gün qabaqcadan, əlavə vaqonlara isə bilet satışı həmin vaqonlar qatara qoşulan gün həyata keçirilir.

Bakı Nəqliyyat Agentliyindən isə bildirilib ki, bayram günlərində agentlik müntəzəm sərnişindaşıma fəaliyyətinə nəzarəti təmin etmək məqsədilə xüsusi rejimdə çalışacaq. Agentliyin əməkdaşları növbəlilik qrafiki əsasında səhər saatlarından axşamadək marşrut avtobuslarının fəaliyyətinə nəzarət edəcəklər.

**Bayram günlərində Bakı Beynəlxalq Avtovağzal Kompleksi də xüsusi rejimdə çalışacaq. Belə ki, qurumdan bildirilib ki, qarşıdakı günlərdə 600-dən çox reyslə 16 mindən çox sərnişin daşınacaq:** "Bakı Beynəlxalq Avtovağzal Kompleksi qarşıdan gələn Qurban bayramı ilə əlaqədar yarana biləcək sərnişin sıxlığının qarşısını almaq məqsədilə iş qrafikində dəyişiklik edib. Avqustun 15-dən 27-dək Bakı Beynəlxalq Avtovağzalı gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bayram ərəfəsində 600-dən çox reyslə 16 mindən çox sərnişinin daşınması nəzərdə tutulur. Müqayisə üçün qeyd edək ki, adi günlərdə gün ərzində 400-440 nəqliyyat vasitəsi ilə təxminən 12 min sərnişin avtovağzaldan yola salınır. Sərnişinlər biletləri Bakı Beynəlxalq Avtovağzal Kompleksinin kassalarından və ya onlayn qaydada hələ 10 gün öncədən əldə edə bilərlər. Nəqliyyat vasitələrinin fəaliyyətinə xüsusi komissiyası nəzarət edəcək".

Bayram günlərində Bakıda pullarını xarici valyutaya dəyişib, xaricə səfər etmək istəyənlər də əziyyət çəkməyəcəklər. Belə ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının tövsiyəsi ilə Qurban bayramı ilə əlaqədar 22 və 23 avqust qeyri-iş günləri ərzində əhalinin və çoxsaylı turistlərin bank xidmətlərindən rahat faydalanması üçün bir sıra bankların filial və şöbələri gücləndirilmiş iş rejimində çalışacaq.

Palatadan "Yeni Müsavat"a verilən məlumata görə, bayram günləri ərzində valyuta mübadiləsi xidmətlərinə rahat çıxışı təmin etmək məqsədilə 22 bankın 56 filial və şöbəsi müştərilərə xidmət göstərəcək. Bakı şəhərində yerləşən 6 bankın 2 filialı və 5 şöbəsi 24/7 rejimində işləyəcək. Həmçinin Maliyyə Bazarlarına Nəzarət Palatasının işçi heyətindən ibarət xüsusi monitorinq qrupu fəaliyyət göstərəcək.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018

# Qubad İbadoğlunun dediyi kritik 10 gün

## Türkiyə iqtisadi böhranı adlaya bildimi?

**ABŞ prezidenti Donald Trampın rahib Bronsonun azad edilməsi məsələsində Türkiyəyə daha heç bir güzəştin edilməyəcəyi barədə açıqlamasından sonra türk lirəsi ABŞ dolları qarşısında bir qədər də dəyər itirib. "Reuters" agentliyinin bununla bağlı məlumatına görə, dolların məzənnəsi 6,09 lirədən 6,16 lirəyə yüksəlib.**

Xatırladaq ki, Tramp "Reuters" agentliyinə verdiyi müsahibədə Türkiyəyə qarşı mövqeyindən hər hansı güzəştə getməyəcəyini bildirib. Tramp Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla "əvvəllər bir-birilərini yaxşı başa düşdüklərini" deyib. Amma bildirib ki, Ərdoğanın rahib Bronsonu azadlığa buraxmaqdan imtina etməsi "qorxunc səhv" oldu (virtualaz.org).

Trampın sözlərinə görə, o, Ərdoğanla anlaşma əldə etmişdi. Həmin anlaşma çərçivəsində ABŞ prezidenti İsraildə həbsdə olan bir Türkiyə vətəndaşının azadlığa buraxılmasını təmin edib. Bunun əvəzində Ərdoğanın rahib Bronsonu azadlığa buraxacağını gözləyib: "Onun üçün (Ərdoğan nəzərdə tutulur - red.) həmin Türkiyə vətəndaşının azadlığa buraxılmasını təmin etdim. Onun da (Ərdoğanın - red.) bu məsum və mükəmməl insanı, möhtəşəm ata və gözəl xristian olan o adamı (Bronsonu) Türkiyədən buraxmasını gözlədim".

**ABŞ prezidenti əlavə edib ki, Türkiyənin hərəkətləri "çox məyusedicidir":** "Mən onların dəhşətli səhvə yol verdiklərini düşünürəm. Hər hansı güzəşt olmayacaq".

**ABŞ prezidenti onu da deyib ki, Türkiyəyə qarşı tətbiq etdiyi iqtisadi sanksiyaların başqa ölkələrin iqtisadiyyatına təsirindən narahat deyil:** "Heç narahat deyiləm, bu düzgün addım idi".



Tramp onu da deyib ki, Amerika tərəfi daha Türkiyə ilə "bazarlıq" etməyəcək və hər hansı güzəştlər müzakirə olunmayacaq: "Türkiyəni sevirəm, insanlarını çox sevirəm. Bu ana qədər, bildiyiniz kimi, prezidenti ilə də çox yaxşı münasibətlərim var idi. Onunla yaxşı anlaşırdıq. Amma bu, birtərəfli ola bilməz. Artıq ABŞ tərəfdən birtərəfli yollar olmayacaq".

Göründüyü kimi, ABŞ prezidenti Türkiyəyə qarşı münasibətdə hər hansı yumşalma ehtimalını istisna edir. Bu şəraitdə Türkiyə iqtisadiyyatında yaranan sakitlik nə qədər uzunömürlü ola bilər? Qardaş ölkənin problemlərinin arxada qaldığını söyləmək olar, yoxsa yenidən böhran əlamətləri meydana çıxa bilər?

**Sualları cavablandıran iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu deyir ki, Türkiyə iqtisadiyyatı əsas kritik dövrü keçib:** "Bu dövrdə əsas zərbə alan yalnız lirə olmadı, ölkənin maliyyə-bank sektoru da ciddi zərər gördü. Bu baxımdan Türkiyə iqtisadiyyatının böhrandan çıxdığını söyləmək hələ tezdir. Hesab edirəm ki, hazırda lirənin möhkəmlənməsi keçid dövründəki gözləntilərlə bağlıdır. Yəni bundan sonrakı iqtisadi siyasət və eyni zamanda ölkə başçısının mövqeyi, xarici siyasət, ticari siyasətlər kimi amillər sonrakı proseslərdə önəmli rol oynayacaq. Amma əsas odur ki, Türkiyə iqtisadiyyatı Mərkəzi Bank tərəfindən daha düzgün tənzimlənir və Maliyyə Nazirliyi prosesdə kifayət qədər fəal iştirak edir. Çox yaxşıdır ki, Mərkəzi Bankın həyata keçirdiyi siyasət də ilkin müsbət nəticələrini verir".

**İqtisadçı-alimin fikrincə, orta və uzunmüddətli dövrdə Türkiyə iqtisadiyyatında ciddi dəyişikliklərə ehtiyac yaranacaq:** "Bu dəyişikliklər əsasən maliyyə-bank sektorunda, pul-kredit və fiskal siyasətlə əlaqəli proseslərdə müşahidə olunacaq. Amma bu gün lirə sabit duruma gəlib çıxsa da, ölkədə inflyasiya gözləntiləri hələ də qalır. Hesab edirəm ki, yaxın dövr üçün ən mühüm çağırışlar inflyasiyanın idarə olunması olacaq. Çünki inflyasiyanın ikirəqəmli olması Türkiyədə sosial vəziyyətin pisləşməsini şərtləndirəcək. Yəni hər şey bitdi demək hələ tezdir. Hesab edirəm ki, iqtisadiyyat sektorunda gedən dəyişikliklərlə yanaşı, çox vacib məsələlərdən biri də Türkiyənin Qərbə olan münasibətinin hansı səviyyədə çözülməsi olacaq. Türkiyə, Rusiya və İran üçlüyü Çinlə birlikdə qarşılıqlı ticarətdə milli valyutalardan istifadəyə keçərlərsə, bu, lirənin yenidən dəyərsizləşməsinə gətirib çıxara bilər. Buna görə də hazırkı dövr üçün ən vacib məsələlərdən biri ticari müharibəyə son qoyulmasıdır".

**Q.İbadoğlunun sözlərinə görə, Türkiyənin digər əsas problemi olan xarici borclar məsələsini də tezliklə həll etmək mümkün deyil:** "Bu problemin tezliklə həlli ölkədə valyutaya tələbi artıra və lirənin məzənnəsində təkrar dəyişikliyə gətirib çıxara bilər. Ona görə də yaxın dövr üçün Türkiyədə xüsusilə də məzənnənin sabitləşməsi üçün əlavə valyuta rezervlərinin yaradılması, xarici ticarətdə mənfi saldonun azaldılması üçün təşəbbüs və dəyişikliklərə daha çox ehtiyac var".

**Müsahibimiz bildirir ki, ABŞ-Türkiyə münasibətlərindəki böhran qısamüddətli dövrdə Türkiyəyə, uzunmüddətli dövrdə isə ABŞ-ın özünə zərər vuracaq:** "Ümumiyyətlə, Türkiyədəki mövcud böhran bir neçə riski hələ də saxlayır. Bunlardan birincisi Türkiyədən yatırımların qaçması, eyni zamanda bu böhranın digər ölkələrə yayılmasıdır. İkinci risk Türkiyə iqtisadiyyatının dərin durğunluğa girməsi ehtimalıdır. Bu il üçün Türkiyədə iqtisadi artımın ötən ilə nisbətən daha zəif olması gözlənilir. Belə zəifləmə davam edərsə, durğunluğa gətirib çıxarar. Üçüncüsü isə Türkiyə ilə Qərb arasında bağların tamam qopmasıdır. Hansı ki, bu, qısamüddətli dövrdə Türkiyə iqtisadiyyatında ciddi böhrana gətirib çıxara bilər. Bu şəraitdə Türkiyənin beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığı genişləndirməsinə ciddi ehtiyac var. Xüsusilə də Beynəlxalq Valyuta Fondunun yardımları Türkiyə üçün əhəmiyyətli ola bilər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# İranın ardınca Türkiyəyə qarşı sanksiyalarda İsrail "izi"

**Qabil Hüseynli:** "ABŞ və İsrail, faktiki, "bir millət - iki dövlət" halına gəlib"
**Əhəd Məmmədli:** "İsrail açıq müstəvidə Türkiyəyə qarşı çıxmır, amma..."

**İrana qarşı Amerika tərəfindən tətbiq edilən sanksiyalarda İsrailin də əsas rol oynadığı heç kəsə sirr deyil. Rəsmi Təl-Əvivin Türkiyəyə qarşı son aylarda artan təzyiqlərdə, sanksiyalarda yer aldığı barədə də iddialar meydana çıxıb.**

Türkiyə-İsrail münasibətlərində son 10 ildə vaxtaşırı gərginliklər yaşanıb. İkincinin bundan istifadə etmək üçün belə bir tarixi şans qazandığı bildirilir. Yəhudi lobbisinin ən güclü olduğu ölkələrdən olan Amerikada İsrailin Ağ Evə müxtəlif yollarla təzyiqlər göstərdiyi iddia edilir. Xüsusilə Birləşmiş Ştatların İsrailin paytaxtını Qüdsə köçürməsinə ən sərt təpki verən Türkiyədən "qisas almaq üçün" yəhudi dövlətinin hərəkətə keçdiyi də iddialar sırasındadır.

**Sabiq dövlət müşaviri Qabil Hüseynli İsrailin yerləşdiyi bölgədə Amerikanın ən yaxın müttəfiqi olduğunu vurğuladı:** "Bu iki ölkə arasında müttəfiqlik səviyyəsindən də ən yüksək səviyyədə münasibətlər qurulub. Az qala, "bir millət - iki dövlət" halına gəliblər. ABŞ-da kifayət qədər güclü olan yəhudi lobbisi var. Amerikan mətbuatının böyük bir hissəsi yəhudilərin nəzarəti altındadır. Maliyyə bazarlarında da onların kifayət qədər gücləri hiss olunur. İsrail heç zaman İrana qarşı hansı mövqedə olduğunu gizlətməyib. İsrail Amerikada olan imkanlarından hakimiyyətə qarşı daim istifadə edib. Qüdsün paytaxt elan edilməsi və Amerikanın səfirliyini bu şəhərə köçürməsi Türkiyə tərəfindən böyük təpki ilə qarşılandı. O zaman İslam Əməkdaşlıq Konfransının sədri olan qardaş ölkə qurumun növbədənkənar toplantısını çağırmışdı. Həmin vaxt rəsmi Ankara konkret məsələ qaldırmışdı ki, hər kəs ABŞ-ın bu qərarını pisləsin, heç kəs Qüdsü İsrailin paytaxtı kimi tanımasın və səfirliyini ora köçürməyəcəyi barədə öhdəlik götürsün, bu məsələ birlikdə BMT-nin Baş Məclisinin gündəliyinə çıxarılsın. Nəticədə gündəlikdə ABŞ-ın ziyanına olan qərar verildi. Hətta Avropa dövlətlərinin bəziləri belə Amerikanın qərarını kəskin şəkildə pislədi.


Qabil Hüseynli


Əhəd Məmmədli

Bunların hamısı Türkiyənin addımları ilə həyata keçirilirdi. Trampın Türkiyəyə qarşı tələblərindən biri də rəsmi Ankaranın Qüds mövqeyini dəyişdirməsi ilə bağlı idi. Bütün bunlar göstərir ki, Türkiyəyə qarşı təzyiqlərdə İsrailin barmağı var. Hətta Türkiyə prezidenti bəyanatlarının birində lazım gəlsə, İsrailə qarşı müsəlman dövlətlərinin hücumunun təşkil edilməsinin zəruriliyi barədə fikir səsləndirmişdi. Doğrudur, onun bu açıqlaması geniş yayılmadı, amma İsraili çox qəzəbləndirdi. Hətta İsrailin xarici işlər naziri bu bəyanatdan sonra bildirmişdi ki, "görünür, Türkiyə İsraili bölgədəki hansısa kiçik badımcan dövləti ilə qarışıq salır". Hazırda Türkiyə-İsrail münasibətləri çox gərgin vəziyyətdədir. Hətta qardaş ölkə İsraildəki səfirini belə geri çağırıb. Türkiyəni orada onun müvəqqəti işlər vəkili təmsil edir".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli bildirdi ki, İsrailin müsəlman dünyasında yeganə qorxduğu ölkə Türkiyədir:** "O, nə ərəblərdən, nə də İrandan qorxur. İndiki İsrail bir neçə əsr Osmanlının ərazisi olub. Osmanlı yəhudilərin əmin-amanlıq içində yaşadığı yeganə ölkə olub. İsraillilər türkləri çox yaxşı tanıyırlar. Onlar gözəl anlayırlar ki, Fələstinin azadlığının açarı güclü, böyük Türkiyədən keçir. Dünya sionizmi əlindən gələni edir ki, Türkiyənin güclənməsinin qarşısını alsın. ABŞ-ın yevangelist-yəhudi elitası Türkiyəyə qarşı səlib yürüşü elan edib. Müasir dövrdə də hansısa ölkəyə qarşı səlib yürüşü etmək üçün təkcə hərbə əl atmağa ehtiyac yoxdur. Biz bunu qardaş Türkiyənin nümunəsində çox yaxşı görürük. Türkiyə dövlətinə son illərdə ABŞ-İsrail tandemi olmayan zərbələri vurdu. Amerika və İsrailə islam coğrafiyasında problem yarada biləcək və müasir Qərb səlibçilərini müsəlman torpaqlarından qova biləcək yeganə güc Türkiyədir. Amerika və dünya sionizminin müsəlman dünyasında oynadığı bütün oyunlar Türkiyəni sıradan çıxartmaq məqsədini güdür. İsrail qurulandan üzr istədiyi yeganə dövlət Türkiyədir. Məlum faciədə yəhudi hərbçiləri tərəfindən öldürülən türk vətəndaşlarının ailələrinə İsrail təzminat ödəməyi də boynuna götürüb. Həmin vaxtdan Türkiyə-İsrail münasibətləri kifayət qədər gərgindir. İldən-ilə bu iki ölkə arasında münasibətlər daha da gərginləşir. Düzdür, İsrail hələlik tam açıq müstəvidə Türkiyəyə qarşı çıxmır, amma dünya yəhudi lobbisi Amerikanın əli ilə türk dövlətinə qarşı savaş açıb. Bu savaşda İsrail bir dövlət kimi Türkiyəyə qarşı son anda çıxacaq. Lakin bu an İsrailin bir dövlət kimi sonuna gətirib çıxara bilər. Fikrimcə, israillilər buna getməzlər. Yəhudilər ağıllı xalqdır və türkləri çox gözəl tanıyırlar. Onlar bilirlər ki, türklər onlar üçün nə ərəb, nə də farslar deyil. Yəhudilər görsələr ki, Türkiyəni saxlamaq mümkün deyil, türklərlə anlaşmaya gedəcəklər. Və bu da İsrail dövlətinin gələcəyi üçün ən doğru qərar olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Azərbaycanda dollara tələb yenidən artacaq"

## Ekspert: "Mərkəzi Bank sabit məzənnə kursunu davam etdirməyə çalışır, amma..."

**Üç əsas qonşusunda baş verən iqtisadi proseslər Azərbaycan milli valyutasına bir sıra təzyiqlər formalaşdırır. Bu təzyiqlərin payıza doğru daha da güclənəcəyi gözlənilir.**

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun** dediyinə görə, region ölkələrində valyutaların düşüşündən sonra qlobal valyuta bazarında da dəyişikliklər müşahidə olunur: "Ankara "1 dollar 6 Türkiyə lirəsi" məzənnəsini qoruyub saxlamağa çalışsa da, bunun asan olmayacağı aydındır. Belə görünür ki, həm Ağ Evdə, həm də Ağ Sarayda fərqli əhval-ruhiyyə var. Bu isə ABŞ ilə Türkiyə arasındakı gərginliyin arta biləcəyindən və bunun baş verəcəyi halda lirənin yenidən təzyiqlə üzləşəcəyindən xəbər verir. Rusiya rublu da heç də yaxşı günlərini yaşamır. Amma Kreml "rubla yenidən daha pis günləri yaşatmamaq" üçün mövcud iqtisadi və psixoloji alətlərdən faydalanmağa çalışır. Bununla belə, rublun başı üzərindən "qara buludların" çəkildiyini söyləmək tezdir".



**Ekspertin sözlərinə görə, ABŞ prezidenti Trampın son tviti avroya yenidən nəfəs qazandırır:** "ABŞ prezidenti Avropa və Çini öz valyutalarını bilərəkdən ucuzlaşdıraraq, ixracatda üstünlük qazanmağa çalışdıqlarını deyərək Federal Ehtiyatlar Sisteminin uçot stavkasının artırılması ilə bağlı siyasətini tənqid edib. Belə görünür ki, Tramp administrasiyası dolların səbət valyutalarına nisbətən möhkəmlənməsində hələ də maraqlı deyil. Trampın "ucuz dollar böyük ixrac" yanaşması yenə də aktualdır. Ağ Ev bu siyasətini davam etdirərsə, o zaman avronun yenidən möhkəmlənməsi mümkündür. Qlobal və regional valyuta bazarındakı dəyişikliklər, təbii ki, milli valyutamıza da psixoloji təsir göstərir. Lirənin ucuzlaşması və rublun büdrəməsi Azərbaycanda ötən həftə dollara tələbi yüksəltdi. Xarici valyutalara tələb nisbətən azalsa da, yenə əvvəlki aylarla müqayisədə yüksəkdir. Öncədən proqnozlaşdırdığımız kimi, bu ayın sonunadək dollara tələb yüksək olaraq qalacaq. Mərkəzi Bank isə sabit məzənnə kursunu davam etdirməyə çalışır. Doğrudur, baş bankın mövqeyi manatın taleyini birbaşa həll edən faktordur. Bununla belə, Rusiyada rublun vəziyyəti Mərkəzi Bankın gələcək valyuta siyasətinə korrektələr gətirə bilər".

**İqtisadçı-ekspertə görə, neftin qiyməti manatın məzənnəsi üçün vacib olsa da, aqrar məhsullarımızın 90, ümumi qeyri-neft ixracatımızın 34 faizinə sahib olan şimal qonşumuzun valyutasının dəyəri bizim üçün az əhəmiyyətli deyil:** "Qeyri-neft ixracatındakı müqayisəli üstünlüklərimizin qorunub saxlanması üçün neftdən kənar sektorlar üzrə əsas ticarət tərəfdaşlarımızda valyutaların vəziyyətinin nəzərə alınması çox vacibdir. Amma bütün hallarda son qərarı Mərkəzi Bank verəcək. Bütövlükdə, noyabrın ikinci yarısından - ilin sonundan dollara tələbin yenidən yüksələcəyi gözlənilir".

**❑ İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**



# Bakıya gətirilən 70-dən çox qurbanlıq qoyun tələf oldu

**Musavat.com-un müxbiri qurbanlıq heyvanların satış yarmarkasında dəhşətli mənzərənin şahidi olub. Yarmarkaya satışa gətirilən yük maşını ilə dolu qurbanlıq heyvanlar tələf olub.**

Buna səbəb isə heyvanları daşıyan maşında havalandırma yerinin olmaması olub. Nəticədə qapalı yerdə yüz kilometr yol gələn 70-dən çox heyvan istidən və havasızlıqdan tələf ölüb. Heyvan sahiblərinin özləri də bu vəziyyətdən yarmarkada xəbər tutublar. Öyrəndik ki, heyvanlar yarmarkaya Siyəzən rayonundan gətirilib.

Müşahidə etdik ki, heyvanlar yük maşınından düşürdülərkən ölü vəziyyətdə olublar. 70 heyvandan cəmi 4-ü sağ qalıb. Satıcılar külli miqdarda ziyana düşməmək üçün məcburən yerdə can verən heyvanları tələsik kəsiblər. Lakin həmin ətrafda olan qəssablar bu heyvanların ətinin insanlara satılmasını doğru hesab etmirlər.

**❑ Məğrur MƏRD,**
**Fotolar müəllifindir**

# Rusiyadan icazəsiz Transxəzər qaz kəməri çəkmək olar, ya yox?

## Xəzərin statusu haqda Konvensiyada "sualtı daşlar" barədə

**Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzərin hüquqi statusuna dair Konvensiyanın 22 ildir davam edən danışıqlardan sonra nəhayət imzalanması dünya KİV-lərində regionun ən mühüm layihəsinin-Transxəzər qaz kəmərinin perspektivlərinə dair müzakirələri yenidən aktuallaşdırıb.**




Türkmənistan qazının Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropaya nəqli üçün nəzərdə tutulan bu qaz kəməri layihəsi uzun illər əvvəl irəli sürülüb. Amma Xəzərin hüquqi statusunun razılaşdırılmaması layihənin qarşısında əsas əngəl hesab edilirdi. Çünki Rusiya və İran bu mövqedə idi ki, dənizin dibindən kəmərlərin çəkilməsi bütün sahilyanı dövlətlərin razılığı ilə baş tuta bilər.

İndi Xəzərin hüquqi statusuna dair Konvensiyada göstərilir ki, dənizin dibindən kəmərlərin çəkilməsi üçün kəmərin marşrutunun keçdiyi milli sektorların mənsub olduğu ölkələrin razılığı kifayət edir. Bu baxımdam həm rəsmi Aşqabad, həm bir sıra ekspertlər belə qənaətə gəliblər ki, Transxəzər qaz kəmərinin çəkilməsi üçün türkmən qazının Avropa bazarlarına çıxmasında maraqlı olmayan Rusiyanın razılığı tələb olunmur. Yeni konvensiya Transxəzər qaz kəməri layihəsi üçün perspektivlər açıb.

Bəs əslində necədir? Virtualaz.org xəbər verir ki, Rusiya XİN bu diskussiyalarla bağlı Xəzərin statusuna dair çoxtərəfli danışıqlarda Rusiya nümayəndə heyətinə rəhbərlik etmiş diplomatın, XİN-in xüsusi tapşırıqlar üzrə səfiri İqor Bratçikovun cavabını öz saytında dərc edib.

İqor Bratçikov bildirir ki, Xəzərin hüquqi statusuna dair Konvensiya dənizin dibindən boru kəmərlərinin çəkilməsi mövzusunu kifayət qədər ətraflı açır, izah edir. Konvensiyada bütün sahilyanı dövlətlərin öz milli sektorlarında texnoloji boru kəmərlərini çəkmək hüququ təsbit olunub. Xüsusən də Xəzərdə neft-qaz yataqlarının istismarının başlamasından bəri dənizin dibi ilə müxtəlif təyinatlı bir çox kəmərlər çəkilib və belə kəmərlərin sayı artacaq.

Bununla yanaşı, konvensiyada Xəzərin dibində heç vaxt mövcud olmayan magistral, transxəzər kəmərlərin çəkilməsi mövzusuna ayrıca toxunulur. Konvensiyanın 14-cü maddəsində deyilir ki, tərəflər bu cür boru kəmərləri çəkə bilərlər, amma bir şərtlə ki, tikinti layihələri tərəflərin iştirakı ilə imzalanmış beynəlxalq müqavilələrdə əksini tapmış ekoloji tələblərə və normalara, o cümlədən Xəzər dənizinin dəniz mühitinin qorunmasına dair Çərçivə konvensiyasına və həmin sənədə əlavə olunmuş protokollara uyğun olsun.

Rusiya XİN-in xüsusi tapşırıqlar üzrə səfiri qeyd edir ki, bu il iyulun 20-də Moskvada beş xəzəryanı ölkənin xarici işlər nazirləri tərəfindən transsərhəd kontekstində Xəzərin ətraf mühitinə təsirlərin qiymətləndirilməsinə dair 2003-cü il Tehran Çərçivə Konvensiyasına əlavə Protokol imzalanıb. Həmin protokol Xəzərin hüquqi statusuna dair Konvensiyanın 14-cü maddəsində birbaşa xatırladılır.

Protokol beş sahilyanı dövlətin hər birinin Xəzərin ətraf mühitinə potensial təsiri ola biləcək transsərhəd dəniz fəaliyyətinin hərtərəfli ekoloji ekspertizasında iştirak etmək hüququnu təsbit edir. Yeni bu cür layihələrin milli səviyyədə ekoloji ekspertizası ilə yanaşı bütün sahilyanı dövlətlər tərəfindən hərtərəfli və diqqətlə araşdırılması da tələb edilir. Diplomata görə, aydın məsələdir ki, Xəzərin bir sahilindən digər sahilinə karbohidrogenlərin ötürülməsi kimi irimiqyaslı layihələr avtomatik olaraq sözügedən protokolun təsiri altına düşür.

Beləliklə, İqor Bratçikovun bildirdiyi kimi, əgər transxəzər boru kəmərləri layihələri meydana çıxarsa, iştirakçı ölkələr hələ layihələndirmə mərhələsində onun Xəzərin ekologiyasına mümkün təsirlərini analiz etmək prosedurunu başlatmalıdır. Yeni Transxəzər qaz kəməri layihəsi üzərində layihələndirmə işləri başlasa, əvvəlcə gərək bütün sahilyanı ölkələr onu ekoloji ekspertizadan keçirib öz razılıqlarını versinlər.

**Rusiya XİN-in Transxəzər qaz kəmərinin tikintisi perspektivlərinə dair rəsmi mövqeyi məhz bundan ibarətdir. Moskva protokoluna əsasən sahilyanı dövlətlər transsərhəd kontekstində aşağıdakı işlər bütün sahilyanı ölkələrin ekoloji qiymətləndirməsindən keçməlidir:**

*- neft və qazın, neft məhsullarının və ya kimyəvi maddələrin nəqli üçün nəzərdə tutulan böyük diametrli boru kəmərləri;*

*- dəniz ticarət limanları, habelə daxili su yolları və daxili sularda gəmiçilik üçün sututumu 1350 tondan yuxarı olan gəmiləri qəbul edə bilən limanlar;*

*- karbohiderogen hasilatı. Kommersiya məqsədi ilə neft və qaz hasilatı, bu zaman hasil olunan faydalı ehtiyatların həcmi gündə 500 ton neftdən və 500 min kubmetr qazdan yuxarı olarsa;*

*- su ehtiyatlarının dəniz hüdudları çərçivəsində və ya çay hövzələri arasında daşınması işləri, bu zaman həmin daşınma su qıtlığının qarşısının alınmasına yönəlməlidir və daşınan suyun həcmi ildə 100 milyon kubmetri keçməlidir.*

Protokola əsasən təkcə Transxəzər qaz kəməri üçün Rusiyanın və digər sahilyanı ölkələrin birgə razılığı tələb olunmur. Deməli, Xəzərdə yeni iri limanların tikintisi, Rusiya ərazisindən dənizə "Avrasiya" kanalının çəkilməsi, İranın "Xəzər dənizi-Fars körfəzi" kanalı ideyası, o cümlədən iri neft-qaz yataqlarının hasilatı da protokolun tələblərinə uyğun olaraq bütün sahilyanı ölkələrin ekoloji qiymətləndirməsindən keçməlidir.

Qeyd etmək lazımdır ki, elə Astana sammitində çıxışı zamanı Rusiya prezidenti Vladimir Putin Kaspiyskdə yeni böyük dəniz-ticarət limanının tikiləcəyinə dair planlarını açıqlayıb. Yəni belə çıxır ki, Türkmənistan və Azərbaycan öz aralarında Transxəzər qaz kəmərinə dair razılığa gəlsələr, bunu Rusiya və digər sahilyanı ölkələrlə də razılaşdırmaq tələb olunacaq. Eləcə də Rusiyanın Kaspiyskdə yeni böyük ticarət limanı tikmək layihəsi Azərbaycan və Türkmənistanın (o cümlədən İran və Qazaxıstanın) razılığını tələb edir.



# Qalmaqallı, qeylü-qallı Tramp...

Xalid KAZIMLI

**Elə bir gün olmaz ki, ABŞ prezidenti Donald Trampdan nəsə bir xoşagəlməz soraq gəlməsin.**

Söz yox, dünyanın hegemon dövlətinin ən ali postunun sahibi istər-istəməz medianın, hər kəsin diqqət mərkəzində olmalıdır və bu, həmişə belə olub, Trampın sələflərinin də hər gün harada olduqları, nə etdikləri, nə danışdıqları barədə xəbərlər yayılırdı.

Ancaq fərq ondadır ki, onların hər dediyi skandal olmurdu, hər qərarı mübahisə predmetinə çevrilmirdi.

Tramda isə əksinədir. Adam hər gün müxtəlif qalmaqalların mərkəzi fiquru olur.

Elə bir durum yetişib ki, artıq hamı hər gün onun nəsə yeni bir şey deyəcəyini, ən azı, twitterdə nəsə yazacağını, nəsə bir qeyri-populyar sərəncam verəcəyini gözləyir və heç zaman yanılmır.

Əslində bu ekstravaqant iş adamının necə prezident olacağı hələ seçki kampaniyasındakı davranışlarından bəlli idi.

Elə o vaxtdan bilinirdi ki, bu adam hakimiyyətə gəlsə, sələflərindən çox fərqlənəcək.

Bununla belə, ümid vardı ki, tutduğu vəzifənin əzəməti və məsuliyyəti Donald Trampın bir çox hərəkətlərini çərçivəyə salacaq, adam özünü yığışdıracaq.

Fəqət elə olmadı. Komandasının üzvləri ona hətta hər gün Tvitterdə neçə dəfə mesaj yazmağı tərgitdirə bilmədilər.

Getdikcə aydın şəkildə ortaya çıxır ki, cənab president heç kəsi dinləmir, özünü hamıdan ağıllı, güclü sayır.

Hələ ilk dəfə hansısa sammitdə Trampın arxadan gələrək bir avropalı prezidentin (yaxud da baş nazirin) qolundan yapışıb qaba şəkildə dartması, özünü ondan qabağa dürtməsi görüntüsü yayılanda bir çoxlarına elə görünmüşdü ki, bu hərəkəti edən adam psixi cəhətdən sağlam biri ola bilməz.

Ancaq cənab Tramp ondan sonra dəfələrlə bənzər və daha qaba hərəkətlər etdi, qalmaqal doğuracaq sözlər danışdı, açıqlamalar verdi. Arada onu psixi sağlamlıq testindən də keçirdilər, amma sağlam çıxdı.

Təəssüf ki, dünyanın ən qüdrətli siyasi postunun sahibi beynəlxalq münasibətlərdə də öz ekstravaqantlığını göstərir. Onun rəqib-müttəfiq demədən bir çox dünya ölkələrinə sanksiya tətbiq etməsi artıq anektod mövzusudur.

Trampın gözlənilməz qəzəbinə gələnlər arasında ABŞ-ın köhnə müttəfiqləri - Kanada, Türkiyə, Almaniya, Meksika kimi dövlətlər var.

Bu dövlətlərin rəhbərliyi və ictimaiyyəti Ağ Ev sahibinin hərəkət və qərarlarını heyrətlə izləyir, izah tapmaqda çətinlik çəkirlər.

Trampın dəlisovluğu media ilə münasibətlərində daha qabarıq şəkildə büruzə çıxır. Elə bir gün olmur ki, o, hansısa populyar telekanalı, qəzeti yamanlamasın, onları qərəzlilikdə, qeyri-obyektivlikdə suçlamasın.

Bunlar, təbii ki, uyğun reaksiyalar doğurur. Onlar da prezidentin adının dilə-dişə düşməsində əllərindən gələni əsirgəmirlər.

ABŞ prezidentinin təhqiqat aparan xüsusi prokuror Müller barəsində dedikləri isə başqa cür qalmaqaldır. Müllerin təhqiqatının əsas hədəfi məhz Tramp və onun Rusiya ilə əlaqələridir. Prezident isə artıq Müllerin obyektivliyini şübhə altına alıb. Bu, onun təhqiqata mane olmaq cəhdi kimi yozula bilər.

Ancaq bu və digər ittihamlar Donald Trampın vecinə də deyil, o bildiyi kimi işləməkdə israrlıdır.

Yeni ABŞ prezidentinin andiçmə mərasimindən az sonra dünyanın bir sıra aparıcı media quruluşları, o cümlədən ABŞ-da çıxan qəzetlər Trampın gec-tez impiçment olunacağını, vəzifəsini yarımçıq tərk edəcəyini yazırdılar. Deyəsən, elə olacaq. Ya da birtəhər dözüb 4 ilinin başa çatmasını gözləyəcəklər ki, yerinə başqa adam seçsinlər.

Bəzən deyirlər ki, ABŞ-da prezident heç kimdir, o vəzifədə kimin oturacağını ABŞ-ın “dərin dövləti” müəyyən edir, seçilmiş prezident isə “ixtiyar”ların oyuncağı olur.

Görünür ki, belə deyil. Amerikalı “ixtiyar”lar bu qədər xərifləmiş ola bilməzlər ki, o boyda dövləti dünyada təklətdirən, nifrət obyekti etdirən adamı qabağa versinlər və onun anormal qərar və hərəkətlərinə görə ölkə beynəlxalq miqyasda nüfuzdan düşsün, maddi, siyasi ziyana uğrasın.

# Elektrik sayğaclarına müdaxilə ilə bağlı yeni və sensasion iddialar

## Bu işin xüsusi haker qrupu tərəfindən həyata keçirildiyi deyilir; ekspert bildirir ki, “Azərişıq”ın sayğaclarına kənardan müdaxilə mümkündür; “Şübhələrin əsası var...”

**Mingəçevirdə baş verən böyük qəzadan bir ay sonra - avqustun əvvəllərində əhali arasında iyul ayındakı enerji sərfiyyatı ilə bağlı ciddi şübhələr meydana gəldi. Sosial şəbəkələrdə də uzun müddət müzakirə olunan bu şübhələr əsasən iyul ayı üçün sərfiyyatın həddən artıq yüksək hesablanması barədədir. Belə ki, istehlakçılar iyul ayı üçün onlara enerji sərfiyyatının çox hesablanmasından narazılıq edir.**

Bu narazılıqlar kütləvi xarakter aldığına görə “Azərişıq” ASC rəsmiləri ictimaiyyət və mətbuat nümayəndələrinin iştirakı ilə geniş görüş təşkil etdilər. Görüş zamanı iştirakçılara sayğacların iş prinsipləri, onların informasiyalarının əldə olunması və hesablamaların aparılması barədə açıqlama verildi. Lakin bu görüşdən sonra da əhali arasında narazılıqlar azalmadı, müzakirələr hələ də davam etməkdədir.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz hesab edir ki, kənardan “Azərişıq”ın sayğaclarına müdaxilə olunması ehtimalı var:** “”Ağıllı sayğac"larla bağlı qısa bir araşdırma aparandan sonra qənaətim budur ki, son aylarda “Azərişıq”ın göndərdiyi bildirişlərdəki məbləğin real enerji sərfiyyatına uyğunluğundan şübhələnmək üçün müəyyən əsaslar var.

Yeni mediada müzakirə mövzusuna çevrilən çoxsaylı şikayətlər şübhələnmək üçün əsas verir ki, əslində evlərdəki elektrik avadanlıqları az enerji sərf edib, “ağıllı sayğac” bunu çox göstərib. Daha doğrusu, sayğac texniki səbəbdən və ya məqsədyönlü olaraq sərfiyyatı düz hesablamayıb. Qısa araşdırmada görmək olar ki, belə bir problem çox yerlərdə olubmuş. “Ağıllı sayğac”lara qarşı ciddi ittihamlar çox olub. Hətta elə ölkələr olub ki, geriyə, köhnə sayğaclara keçid təklif olunub.

Köhnə sayğaclardan “ağıllı sayğac”ın əsas fərqi odur ki, onun, sadəcə, yaddaşı var və ekranda olan məlumatlar, gündəlik sərfiyyat hər gün mərkəzi serverə, yəni “Azərişıq”a ötürülür. Sistem elə qurulub ki, “Azərişıq” uzaqdan sayğaca müdaxilə edə və onu dayandıra bilər. Ötürülmə kanalı da elə özlərinin elektrik xətləri və ya mobil şəbəkə üzərindən ola bilir.

**Buradan belə qənaətə gəlmək olar ki, sayğacların düz işləməməsi və sərfiyyatın çox yazılması ilə bağlı problem aşağıdakı səbəblərdən yarana bilər:**

**1.** “Ağıllı sayğac”ların özündə problem var və standarta uyğun deyil, ehtimal ola bilər ki, hansısa səbəbdən iş prinsipi pozulub. Yəni sərfiyyatı, sadəcə, düz hesablamır.

**2.** “Azərişıq”ın informasiya sisteminə, şəbəkəsinə kənardan qeyri-qanuni müdaxilə olub. Sayğaclardan ötürülən məlumatlar ola bilər ki, başqa alternativ bir billing sistemə yönləndirilib və başqa hesablama aparılıb *(vaxtilə ölkənin beynəlxalq telefon trafikində belə kənar yönləndirmə ilə milyonlar qazananlar oldu).*

**3.** İnsan amili rol oynayıb. Yəni manual olaraq sayğaclara kənar müdaxilə olunub. Amma problem kütləvi olduğundan özümə də bu inandırıcı gəlmir.

**4.** Ola bilər ki, “Azərişıq”ın real billing sistemində və ya ötürmə kanallarında problem yaşanıb. Güman ki, hansısa səbəbdən məlumatların ötürülməsində kəsinti olub. Və rəsmilər də manual olaraq ortalama hesablaşma aparıblar. Bu ortalama hesablamalar üzrə olan bildirişlərdə də əvvəlkilərlə müqayisədə ciddi fərqlər olub. Mənə daha çox bu variant inandırıcı gəlir.

**5.** Sosial mediada bəzən səslənir ki, bu, “Azərişıq” tərəfindən məqsədyönlü olaraq, investisiya xərclərini qarşılamaq üçün edilib. Dərhal qeyd edim ki, bu, hədsiz, çox böyük risk olardı, bu baxımdan inandırıcı deyil. Amma texniki-texnoloji cəhətdən reallaşdırmaq mümkündür".

**Onu da qeyd edək ki, O.Gündüz “Azərişıq”ın təşkil etdiyi görüşdən sonra da sayğaclara kənar müdaxilənin olması fikrində qaldığını bildirib:** “Qurumun rəsmiləri ”Azərişıq"ın fəaliyyəti ilə bağlı bir xeyli məlumatlar versələr də, mənim sistemə müdaxilə ilə bağlı yazdıqlarımda və şübhələrimdə dəyişiklik olunacaq hansısa bir güvənli informasiya əldə edə bilmədim".

**Mütəxəssis deyir ki, hazırda sistem elə qurulub ki, “Azərişıq" həm məhsul (enerji) satır, həm onun çəkisini ölçmək üçün tərəzisini (sayğacı) özü quraşdırır, bu məlumatı özü mərkəzə ötürür və həm də arxada, serverdə onun hesablamasını özü aparır:** ”Proqram təminatlarını da özləri daxildə yazıblar.

Düşünürəm ki, bütün bu proseslərin hamısı həm digər aidiyyəti dövlət qurumlarımız və beynəlxalq qurumlar tərəfindən, yaxşı olar ki, həm də müstəqil ekspertlər tərəfindən audit olunmalıdır. Fikrimcə, həm dövlət nəzarəti gücləndirilməlidir və həm də ictimai nəzarət üçün imkanlar yaradılmalıdır. Yalnız bundan sonra sistemin güvənliyinə təminat vermək olar".

**Forum rəhbəri görüş zamanı mərkəzi server, billing sistemi və bütövlükdə informasiya sistemlərinin fəaliyyəti ilə tanış ola bilmədiklərini qeyd edir:** “Mərkəzi server və ağıllı sayğaclar arasında şəbəkə var və texniki-texnoloji olaraq ağıllı sayğaclara uzaqdan müdaxilə və uzaqdan idarəetmə sadə bir prosesdir, yəni sayğaclar uzaqdan idarə oluna bilər. Bütün ölkələrdə bu belədir. ”Azərişıq" isə təhlükəsizlik baxımından belə bir sistemin olmadığını iddia edir. Düzü, mən anlamadım ki onda ağıllı sayğaclar, bu informasiya sistemləri nəyə gərəkdir ? Odur ki, bu, mənə inandırıcı gəlmir. Yəni sayğacdakı rəqəmlərin uzaqdan idarə edilməklə dəyişdirilə bilməyəcəyi ilə bağlı güvənli bir informasiya və ya əyani bir təqdimat hələlik ortada yoxdur.

Hər halda, düşünürəm ki, real vəziyyəti yalnız güvənli audit ortaya çıxara bilər".

O.Gündüz hesab edir ki, dövlət qurumlarının informasiya sistemlərinin auditinə cavabdeh qurum olan Xüsusi Dövlət Mühafizə Xidməti, həmçinin eGov üzrə səlahiyyətli qurum olan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Energetika Nazirliyi “Azərişıq”ın bütün şəbəkəsini və billinq sistemini audit etməlidir.



Göründüyü kimi, mütəxəssis elektrik sayğaclarına kənar müdaxilənin olması fikrində israr edir. Bir sıra digər ekspertlər də bu rəyi bölüşürlər. Bununla bağlı redaksiyamıza daxil olan məlumata görə, elektrik sayğaclarına kənar müdaxilə qəsdən təşkil olunub. Bu iş xüsusi haker qrupuna həvalə edilib və onlar sayğacların “beyninə” müdaxilə edərək, sərfiyyatı qəsdən artırıblar. Məqsəd əhali arasında sosial narazılıq yaratmaq, kütləvi etirazlara rəvac vermək olub. Enerji qəzası və Gəncə hadisələrindən sonra bu, Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istiqamətində növbəti cəhd olub.

**Buna görə də mütəxəssislərin rəyləri nəzərə alınaraq, elektrik sayğaclarına kənar müdaxilələrin qarşısının alınması üçün zəruri addımların atılması çox vacibdir.**

**❑ TURQUT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018

# “Bakıda xanım Merkellə buluşmaq fürsətim olsa...”

**Tarixçi araşdırmaçı Xaqani İsmayıl:** “1941-ci il oktyabrın 8-də Stalinin imzaladığı qərara əsasən, almanlar Qafqazdan Qazaxıstan çöllərinə sürgün edilib”



**Tarixçi-araşdırmaçı Xaqani İsmayılla müsahibənin ikinci - sonuncu hissəsini təqdim edirik.**

*(əvvəli ötən sayımızda)*

***- Sizin də qeyd etdiyiniz kimi, ermənilər təkcə Azərbaycanda deyil, Gürcüstanda da almanlara qarşı terror törədiblər. Məsələn, 1918-ci ilin dekabrında da alman hərbi missiyasını qorxuya salaraq bölgədən çıxmağa vadar etmək, ingilislərin köməyi ilə Qafqazda ağalığı ələ almaq üçün ermənilər terrora əl atıblar. Onlar Tiflisdəki yalnız və yalnız alman zabitlərinin və rezidensiyalarının yerləşdiyi “Palas” hotelini gizlicə yandırıblar. Həmin dövrlə bağlı sizdə digər hansı tarixi faktlar var?***

- Doğrudur. Sizin diqqətə çatdırdığınız o çox mühüm tarixi fakt ilk olaraq mənim araşdırmalarımda yer alır və həmin faktı alman hərbi missiyasının başçısı general Fon Kressin Göte İnstitutunda əlyazması statusunda qorunan “Mənim Qafqaz missiyam” adlı xatirələrindən aşkar etmişəm. Çox böyük ehtimalla, alman ictimaiyyəti bu fakt haqda məlumatlı deyil. Qəribəlik həm də burasındadır ki, alman hərbi missiyası Gürcüstanın istiqlalına dəstək olaraq dəvət olunsa da, türklərə və bizə münasibətdə erməniləri dəstəkləyir, hətta Bakının geri alınması uğrunda bölgəyə gələn Türk Ordusuna mane də olurdular. Üstəlik, Türk Ordusunu Batum dəmir yolundan buraxmayaraq çox gecikdirdilər. Bundan başqa, Fon Kress yaxınlıq jesti olaraq, öz qərargahını yerləşdirmək üçün Tiflisdəki bir erməni mülkünü kirayələmişdi ki, bu da gürcüləri çox təəccübləndirmişdi. Fon Kressin yazdığı kimi, “Dekabrın 23-də alman qüvvələrinin Gürcüstan paytaxtını sonuncu tərk edən Qafqaz Yeqer polku Tiflisdən çıxdığı günün sabahı güclü erməni ordu hissələri müharibə elan etmədən Gürcüstan sərhədlərini keçərək, Tiflisin 40 kilometrliyinədək irəlilədilər. Ermənilər Tiflisi tutmaq üçün öz uyğun saatlarını gözləyirdilər ki, ingilislərin köməyi ilə Qafqazda ağalığı öz əllərinə alsınlar...”

Fon Kress və gürcü müəllifləri qeyd edirlər ki, ermənilər o hücum zamanı Tiflis yaxınlığındakı alman koloniyasının mövcud olduğu Katerinenfeldə (indiki: Bolnisi - red.) soxuldular... Gürcüstanın “Versiya” qəzeti orada çoxlu qan töküldüyünü və bu qanlı hücumdan sonra almanların arabalarla meyit daşıdığını bildirir. Ancaq bu olaylarda almanların hansı itkilərə uğradığı haqda gürcü qaynaqlarında bilgi verilməməsi təəssüf doğurur. Məsləhətləşdiyim azərbaycanlı bir gürcüşünas gürcülərin bu haqda faktları gizlətməsi Axalkələkdəki erməni hərəkatından ehtiyat etmələri ilə bağlıdır. Ermənilərlə bağlı kitab təqdimatı ilə bağlı məsləhətləşməmiz zamanı belə gürcü alimlərinin çoxunun “Axalkələk ermənilərini qıcıqlandırmayaq!” kimi yanaşmalarının mən özüm də şahidi olmuşam.

***- Xaqani müəllim, başqa bir tarixi mənbədən oxuyuruq ki, sovet dönəmində Göygöldə ermənilərin mənfur münasibətləri ilə üzləşən almanlar 1934-cü il mayın 14-də Helenendorf klubunun divarlarına “Ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar” şüarları yapışdırıblar. Biz adətən erməniləri alman faşistləri ilə müqayisə etmişik, yaxud eyni fikirləri faşistlər barədə yazmışıq. Belə çıxır ki, hələ alman faşizmi mövcud olmadığı illərdə erməni millətçiliyi, qaniçənliyi faşizmə pis nümunə olub. Bu cür yanaşma ilə razılaşırsınızmı?***

- Əslində terrorçu erməni millətçiliyi ilə alman faşizmi arasında çox fərq var. Ona görə də “erməni faşizmi” anlayışı mexaniki olaraq deyilir və yanlış ifadədir. Nədən? Çünki alman faşistləri işğal etdikləri bölgələri tabe olanları öldürmədən idarə etməyə başlayırdılar, orada etnik təmizləmə və soyqırım - yəhidilərlə məsələ başqadır və istisnadır - gərəksiz dağıntılar törətmirdilər. Ermənilər isə tutduqları ərazilərdə türklərə qarşı da, xristian dindaşlarına qarşı da, yəhudi “dost”larına qarşı da ənənəvi olaraq soyqırımı, talanlar, etnik təmizləmə həyata keçirməklə yanaşı, uşaq-böyük, qadın-qız ayırmadan hər kəsə manyakcasına cəza verməklə, şərəfini alçaltmaqla tanınır tarixi sənədlərdə.

***- Ermənilərin Azərbaycan ərazisindəki erməniləri 40-cı illərdə öz yer-yurdlarından sürgün etdikləri barədə sizin geniş araşdırmalarınız olub. Məlumata görə, bu hadisələrdən sonra Sovet rəhbərliyindəki A.Mikoyanın vasitəsilə ermənilər Göygöl və Şəmkirdəki (əvvəllər: Annenfeld) Sibirə sürgün olunan almanların evlərinə köçürülərək dolayısı ilə alman məntəqələrini zəbt ediblər. Qarabağ hadisələrindən sonra həmin yerlərdən qaçan ermənilər sonradan bu ərazilərə iddialar səsləndirirlər. Hansı ki, onlar Azərbaycanı öz vətəni sayan almanların evlərini zorla əllərindən almışdılar. Bu faktlar nədən Avropa Birliyinin ən böyük dövlətində - Almaniyada geniş əks-səda doğurmur? Biz niyə tarixi həqiqətlərimizi dünyaya yaymaqda gecikirik, bunun üçün nələr çatışmır?***

- Erməni millətçilərinin Helenendorf (Göygöl) almanlarına qarşı terror və təqib siyasəti Birinci Dünya müharibəsi dövründə (1914-1918) daha da genişlənir. Rusiya imperiyasının Almaniya ilə müharibəsindən istifadə edən erməni dairələri imperiya rəhbərliyindəki havadarlarının köməyi ilə almanların bu torpaqlardan köçürülməsinə çalışırdılar. 1917-ci ildə onlar bu niyyətə qismən nail olurlar: almanların torpaq sahibkarlığı ləğv edilir, Helenendorfa və ətraf bölgələrə isə Türkiyə və İrandan yeni erməni dəstələri köçürülür. Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi və Leninin Almaniya ilə separat sülh bağlaması alman kolonistlərini sürgündən təhlükəsindən qurtarır, amma bu müvəqqəti “xilas” idi.

1920-ci ildə sovetləşmənin başlamasından sonra ermənilər yenə mərkəzdəki havadarlarının köməyi ilə almanları sıxışdırmağa başlayırlar. Bu dövrdə rayonda onlarla alman “antisovet fəaliyyəti”ndə günahlandırılaraq “NKVD”dəki erməni cəlladların əli ilə güllələnir, digərləri, o cümlədən Helenendorfun əsasını qoymuş Hummellərin bir çoxu Sibirə sürgün edilir. Ermənilərin mənfur davranışı almanları o həddə çatdırır ki, sizin də qeyd etdiyiniz kimi, 1934-cü il mayın 14-də onlar Helenendorf klubunun divarlarına “Ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar” şüarları yapışdırmışdılar.

1940-ci ilin oktyabrında almanlar Şamxor (Şəmkir, keçmiş Annenfeld - red.) rayonunda ermənilərin vəzifələrdə üstünlüyü - faktiki olaraq erməni hakimiyyəti haqqında məktub hazırlamışdılar. Ermənilərin başçı təyin olunduğu rayon müəssisələrinin siyahısı müəyyən edilmişdi. Şamxor (Şəmkir - red.) rayonu əhalisinin təxminən 10%-ni təşkil edən ermənilər müxtəlif təşkilatlarda rəhbər vəzifələrin 90%-ni tutmuşdular. Bu məktubda rayon əhalisinin böyük çoxluğunu təşkil edən azərbaycanlıların hüquqlarının pozulması da göstərilir.

Nəhayət, İkinci Dünya müharibəsinin başlanması ilə erməni millətçiləri niyyətlərinə çatırlar. 1941-ci il oktyabrın 8-də Stalinin imzaladığı qərara əsasən, almanlar Qafqazdan köçürülərək Qazaxıstan çöllərinə sürgün edilir. Azərbaycandakı almanların təsərrüfat sahələri, evləri, mal-qarası isə yeni gələn ermənilərə qismət olur. Stalinin sağ əli olan Mikoyanın səyləri ilə bu ərazilərə təkcə Ermənistandan deyil, İrandan da yüzlərlə erməni ailəsi köçürülür... Almanların mal-mülkünə sahib olan ermənilər bununla kifayətlənməyərək Göygöldəki alman qəbiristanlığına da sahib çıxmağa çalışıblar, oradakı bir sıra qəbirlərin baş daşları “erməniləşdirilib”.

***- Kifayət qədər ciddi faktlardır. Azərbaycanın erməni yalanlarını ifşasında çox mühüm rol oynaya bilər. Sizin bununla bağlı təklifləriniz varmı?***

- Əlbəttə. Bu faktları yuxarıda sadaladığım digər faktlarla kompleks şəkildə - əsasən də ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı şəklində dünyaya car etmək və gərəkli nəticə almaq üçün bu məsələləri ən yüksək şəkildə, dolğunluğu ilə, heç bir şübhə yeri qoymayan tərzdə təqdim edə bilən mütəxəssislərə şərait yaradılmalı, onların irəli sürdükləri layihələr süzgəcdən keçirilən kimi təcili icraata getməlidir. Bizdə isə məmur biganəliyi və əsassız arxayınçılıq hökm sürür. Mən bu yöndə layihəmin məğzini çatdırsam da, hələ səs-soraq yoxdur. Prezident Administrasiyasındakı müvafiq şöbələrə də müraciət etmişəm. Kitabın ruscasının ancaq siqnal nüsxələri yayınlandığı üçün təcili olaraq rus dilində kütləvi sayda çapını da gündəmə gətirmişəm o qəbullarda. Fərəh xanımın da qəbulunda olub onun da diqqətinə çatdırmışam. Əslində arqumentlərimlə tam razılaşırlar.





**“Nədən ATƏT-in Minsk Qrupunun üzvü kimi Almaniya Qarabağ məsələsinin ədalətli həllində fəal rol almasın?”**

***- Xaqani müəllim, Almaniya kansleri Angela Merkel avqustun üçüncü ongünlüyündə Cənubi Qafqaz səfəri çərçivəsində Bakıda da olacaq. Almanların ermənilərin soyqırımına məruz qalması barədə araşdırmalarınızı şəxsən xanım Merkelə təqdim etmək istərdinizmi? Heç olmasa Azərbaycandakı Almaniya səfirliyinə bu araşdırmalar haqda məlumat vermisinizmi?***

- Yaxın günlərdə araşdırmalarımın ingiliscəsini yəqin ki, Almaniya səfirliyinə təqdim edəcəyəm. Ermənilərin almanlara qarşı soyqırım törətməsi ilə bağlı araşdırmalarımı şəxsən xanım Merkelə təqdim etmək istəyimə gəldikdə isə, bu, bizim üçün çox ciddi şanslardan biri olardı. Həmçinin xanım Merkel bir xarizmatik lider olaraq üstün dəyərləri müdafiə edən xristian təəssübkeşidir və antisemit görüşlü deyil. Başqa sözlə, xristian və yəhudilərin acı taleləri haqda bir tədqiqata, bir kitaba etinasız qala biləcəyini düşünmürəm. Belə şans gerçəkləşmiş olsa, ardınca Avropada və digər bölgələrdə nəzərdə tutduğumuz hədəfə doğru sürətimiz arta bilər. Hökumətimiz də, ilkin bəzi nəticələri görsə, bu layihəyə münasibətdə bəlkə daha qərarlı ola bilər. Ancaq xanım Merkellə görüşmək fürsətim olsa, alman alimləri ilə birgə Almaniyada bu mövzuda çox möhtəşəm bir konfrans keçirilməsini, beləliklə, bəzi mübahisəli məsələlərə də son qoyulmasına yardımçı olmasını istədiyimiz dilə gətirərdim. Və daha bir mühüm məsələni gündəmə gətirərdim: nədən ATƏT-in Minsk Qrupunun üzvü kimi Almaniya Dağlıq Qarabağ məsələsinin ədalətli həllində fəal rol almasın? Nədən Minsk Qrupunun digər üzvü Türkiyə ilə səyləri birləşdirib balans yaratmasın? Minsk Qrupunun indiki üç həmsədri I Dünya müharibəsində ermənilərlə tərəfdaş olub və Qarabağ məsələsi də əslində həmin dönəmdən başlayıb. Elə isə onlar necə bitərəf hakim rolu oynaya bilərlər. Baxın: 2008-ci il martın 14-də BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxarılmasını tələb edən bir qətnamə qəbul edilib. Həmin sənəddə azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ da təsdiqlənib. Ancaq qətnamənin səsverməyə çıxarıldığı zaman Rusiya, Fransa və ABŞ öz barış yaratma görəvlərinə və 1993-cü ildəki mövqelərinə qarşı gələrək 14 mart 2008-ci ildəki qətnamənin əleyhinə səs veriblər. Deməli, ya həmsədrlik institutu ləğv olunmalıdır, ya da tərkibi dəyişməli və ya ən azı tamamlanmalıdır! I Dünya müharibəsində Osmanlı ilə müttəfiq olan Almaniya Türkiyə ilə birgə I Dünya müharibəsindəki digər tərəfə qarşılıq, yəni balans yaratmaq gücünə malikdir. Beləliklə, Almaniyanın marağını bölgəyə və tədricən türk coğrafiyalarına çəkmək gərəkdir. Qoyun Almaniya düşünsün: böhtançı “erməni soyqırımı” iddialarını dəstəkləsə nə qazanacaq, Türk dünyası ilə sağlam münasibətlər qursa nə qazanacaq? Bir qədər öncə PKK-nı hər vəcdlə dəstəkləyən Almaniya sonra Türkiyənin qüdrətini gördü və Türkiyə ilə sağlam münasibətlər çərçivəsində bəzi addımlar atmağa başladı. Erməni məsələsində də eynən düşünsün. Almaniya qüdrətli dövlətdir. Almanların dünyada dürüstlük, qayda-qanun sevən, bəşəriyyətə böyük mədəniyyət vermiş və üstün texnologiyalar icad edən və s. kimi çox parlaq bir imici var. Nədən o, Trampın şəxsində dünya siyasətini gülünc və oyuncaq şəklə salan ABŞ-ın yedəyində sürünüb alman ulusuna rəğbət bəsləyən insanlığı çaşdırmalıdır? Başqa sözlə, Almaniya təkqütblü dünya formalaşdırmaq istəyənlərə qarşılıq olaraq balans yaradan cərgədə yer alsa, almanlar da, Avropa da, insanlıq da çox şey qazanar...

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**



# Sən niyə susursan, Misir müəllim?

**Zamin HACI**
zaminhaci@gmail.com

"Susmuşam, tərpənməz bu dil, bu dodaq,
Mən daha lalam, lal - bu yer üzündə.
Məni korlar görər dünyada ancaq,
Məni karlar qanar bu yer üzündə".

*(Ramiz Rövşən)*

**Misir müəllim deyib ki, daha təhsil haqda danışmayacaqdır. Guya onun təhsil haqda qabaqlar söylədiklərini başqa cür yozub təhqir edirmişlər. Əslində hamıya məlumdur Misir müəllim niyə belə təşvişə düşübdür, çünki onun son intervülərindən birində ciddi siyasi xoruzlar buraxması faktı vardır. Misal üçün, orada keçmiş təhsil naziri deyir ki, işdən çıxarılandan sonra mənə salam verməyə qorxurdular, oğlum tək gəzməyə buraxmırdı və sairə. Sanki bizdə karyeranın sonu həyatın sonu, kreslodan düşürülmək isə cəmiyyətdən kənarlaşdırılmağın alternativi imiş. Halbuki belənçik deyildir. Bizdə hamı çalışır keçmiş nazirlərə yaxın olsun. Hamı ancaq keçmiş nazirlərlə qahım olmağa çalışır. Onların qızını alırlar, oğullarına qız verirlər və sairə. Deyilənə görə, bu dəqiqə keçmiş vergilər naziri Fazil müəllimin sünnət toylarına kirvə sifətində çağırılmaqdan başı açılmır. Keçmiş MTN-in keçmiş şefi Eldar müəllim isə Akif Çovdarov başda olmaqla keçmiş generalları ilə bulvarda gəzişəndə millət avtoqraf almaq üçün cumur (deyəsən burnum xeyli uzandı, gedim güzgüyə baxım, yazıya davam edərik - müəllif).**

Ancaq ya vəlvələdən, ya zəlzələdən, bütün hallarda 15 il təhsil naziri işləmiş şəxsin təhsildən danışmayacağını kəskin şəkildə bəyan etməsi heç yaxşı hal deyildir. Üstəlik, Misir müəllim hazırda yenə təhsil sektoruna müəyyən dərəcədə dəxli olan sahədə çalışır - AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktorudur, o cümlədən, akademikliyə müxbir üzvdür (doğrusu, bu müxbir üzv söhbətini hələ anlamış deyiləm; sanki bunlar akademiyanın jurnalistləridir). Təhsildən danışmaq istəmirsə, bəs ona camaat nədən sual versin? Örnək üçün, hazırda müsəlmanların Qurban bayramıdır. Misir müəllim deyə bilərmi hansı qoyunları kəsmək caizdir? Əti neçə ailəyə paylamaq lazımdır? Yanı balalı qoyunu kəsməyin günahı nə qədərdir, həmin adam cəhənnəmin hansı guşəsində kabab ediləcəkdir?

Yaxud Misir müəllim Mətanət Əsədovanın məlum videosuna şərh versə millətimiz üçün olduqca sevinc doğurardı. Araqla limon sıxılmış suyun riyazi görüntü fərqi necədir, müğənni söyüş işlədilən məclisdən neçə dəqiqə sonra çıxıb getməlidir, ümumiyyətlə, qadınlar araq içə bilərmi - yaxşı olar Misir müəllim bunları da bizə izah etsin. Əmin edirəm ki, heç kim Manaf Ağayevin qorxusundan Misir müəllimə gözün üstdə qaşın var deyə bilməz. Bu temalarda izahatlar hazırda sərbəstdir, Misir müəllim. Buyur. Açıqlama ver. Əlbəttə, məsləhətdir o açıqlamalar Mətanət xanımın mövqeyini müdafiə xarakterli olsun. Yenə özün bilən məsləhətdir - sən bu dəyirmanda bizdən fərqli, saç qaraltmısan. Ya da ağartmısan - dəqiq bilmirəm. Dəyirman dedim, mövzumuza tam uyğun bir ata sözümüz yadıma düşdü: "Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz". Eh, məsəli səndən uzaq, Misir müəllim, nöşün belə qorxaq oldun? Bəs indi biz Bolonya prinsiplərini kimdən öyrənək? Kurrikulum meşəsinin gətirdiyi fındıqları və qozları kimin başında sındıraq? Özü də insaf naminə, Misir müəllim xeyli dərəcədə koloritli adam idi. İndiki kadrlar, ümumiyyətlə, müsahibə vermirlər. Misir müəllimin hər açıqlaması isə mətbuat üçün azı 15 yazı idi. 15 ilimizi beləcə yola verdi, getdi. Neçə təhsil ekspertinin başını yedi.

Bu arada, Təhsil Nazirliyi yeni dərs ilinin açılışı günü ilk dərsdə hansı mövzuların keçiləcəyini anons edibdir. "Vətənim Azərbaycan", "Dövlət rəmzləri", "Cümhuriyyət - dövlətçiliyimizin bayraqdarı" kimi söhbətlər ediləcəkdir. Çox yaxşı. Alqışlayırıq. Ancaq həyatdan bu qədər uzaqlaşmaq bəlkə yanlışdır? Uşaqlara məktəbdə reallıqları başa salmaq olmazmı? Misal üçün, bu dəqiqə hamı xaricə qaçmağın yollarını fikirləşir. İlk dərsi "Almaniyanın yolları" temasında açmaq gözəl deyilmi? Ya da belə bir dərs düşünün: "Alverlə məşğul olmaq üçün nə etməli". Yaxud: "Xalqın anası-bacısı olan ərazilərdə davranış qaydaları". Uşaqları savadlı böyütməliyik. Bu isə çətin, məsul, şərəfli peşədir.

Üstəlik, Misir müəllim də susmağa başlayıb. Çətin olacaqdır...




# Azərbaycan Qərb və Rusiyanın çarpaz diqqətində - Merkel Bakıya, Əliyev Moskvaya, Paşinyan...

## Azərbaycan prezidentinin Rusiya səfəri ən çox İrəvanı rahatsız edəcək - səbəb; Əliyev-Putin görüşündə əsas mövzu nə olacaq?; Ekspertlər deyir ki...

**Artıq 4 aydır Qərblə Rusiya arasında gərgin şəkildə vurnuxan Ermənistanın yeni rəhbərliyindən fərqli olaraq, Azərbaycan özünün balanslı xarici siyasət kursunu uğurla davam etdirir. Az öncə Xəzərin hüquqi statusu barədə Rusiya da daxil, Bakının 4 xəzəryanı ölkə ilə imzaladığı Konvensiya bunun növbəti bariz təzahürü sayıla bilər. Sənəd sözsüz ki, 5 dövlət arasında iki və çoxtərəfli əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına stimul verəcək.**

Azərbaycan üçün Xəzər Konvensiyası 5 dövlətin bir-birinin ərazi bütövlüyü və suverenliyinin tanıması kimi də mühüm əhəmiyyət kəsb edir. Konkret olaraq, Rusiyaya və işğalçı Ermənistanın ikinci "arxa-dayağı" sayılan İrana gəlincə, bəllidir ki, Bakı bu iki dövlətlə həm də strateji əhəmiyyətli "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə layihə ortaqlarıdır.

Təsadüfi deyil ki, Xəzər Konvensiyası ən çox işğalçı Ermənistanda təlaş doğurdu. Çünki konvensiya Bakı-Moskva-Tehran strateji üçbucağının formalaşmasına da mühüm töhfədir. Qardaş Türkiyənin bu "üçbucağa" yaxın olduğunu nəzərə alsaq, baş verən proseslər hansısa mərhələdə Qarabağ probleminin həlli yolunda əlverişli siyasi zəminin yaranmasına, Azərbaycanın məsələdə daha sözükeçərli olmasına gətirə bilər.

Bu xüsusda Azərbaycan prezidenti İlham Əliyevin gələn ay Rusiyaya nəzərdə tutulan səfəri bəzi "i"lərin üzərinə nöqtə qoyulması baxımından mühüm önəm daşıyır. Səfər Moskva-İrəvan münasibətlərində yaşayan sərinlik fonunda xüsusilə əhəmiyyətli hesab oluna bilər.

*****

Azərbaycan eyni zamanda Qərblə - Avropa və ABŞ-la münasibətlərdə komplementar siyasətinə sadiqdir. Bakının Avropa Birliyi ilə ikitərəfli əməkdaşlığına dair tərəfdaşlıq sənədinin müzakirəsi uğurla davam edir. ABŞ isə Avropanın Rusiyadan qaz asılılığını azaldacaq Cənub Qaz Dəhlizinin reallaşması üçün Azərbaycana siyasi dəstəyini əsirgəmir. Bu isə başqa sahələrdə də ikitərəfli əməkdaşlığın davamı üçün əlverişli perspektiv açır.

Nəhayət, buna da şübhə yox ki, bir neçə gündən sonra Almaniya kansleri Angela Merkelin baş tutacaq Bakı səfəri Azərbaycan-Qərb münasibətlərinə yeni bir təkan, töhfə vermiş olacaq. Bu səfərdən az müddət sonra isə Azərbaycanın dövlət başçısı Rusiyaya səfərə gedəcək. Onun rusiyalı həmkarı Putinlə görüşü nəzərdə tutulur.

*****

Son baş verənlər bir daha Azərbaycanın iki qlobal güc mərkəzi kimi Qərb və Rusiyanın çarpaz diqqətində olmaqla, hər iki güc mərkəzi üçün vazkeçilməz ölkə statusunun gücləndiyinə şübhə yeri saxlamır. Politoloqlar bu qənaəti bölüşürlər.

**Məsələn, sabiq dövlət müşaviri Qabil Hüseynli bu kontekstdə bir neçə məqama diqqət çəkərək deyir ki, ilin sonuna doğru Azərbaycan və Avropa Birliyi (AB) arasında ikitərəfli münasibətləri əks etdirən sazişin imzalanması üçün artıq hazır olacaq (teleqraf.com):** "Hazırda bu sənəd üzərində ciddi iş gedir. Qənaətimə görə, Azərbaycan yaxın tarixdə AB ilə bu sənədi imzalayacaq. Bakıya səfərə hazırlaşan Merkel və AB strateji tərəfdaş olaraq ölkəmizə böyük önəm verirlər. Çünki Azərbaycanın Cənub Qaz Dəhlizi (TANAP) xətti Avropa bazarına Rusiya qazına alternativ kimi çıxarılır. Gələcəkdə Türkmənistan qazının da bu xətt vasitəsilə Avropa bazarına çıxarılması ehtimalı böyükdür. 2020-ci ilədək Azərbaycan Avropa bazarına 30-32 milyard kubmetr qaz çıxarmaq gücünə malik olacaq ki, bu da ölkəmizin AB ilə iqtisadi əlaqələrinin önəmli kəsimini təşkil edəcək. Buna görə də AB ilə yanaşı, ABŞ da Azərbaycana böyük perspektivi olan strateji tərəfdaş kimi baxır. Qərb habelə Bakı-Tiflis-Qars dəmiryolu və Xəzər dənizi vasitəsilə də Avropa və Asiya qitələrini birləşdirən geocoğrafi məkan kimi Azərbaycana əhəmiyyət verir. Bütövlükdə AB insan haqları və demokratiya sahələrində də Azərbaycanla yaxından əməkdaşlıq etmək istəyindədir. Çünki Qərb Azərbaycanı Avropa ölkəsi kimi qəbul edir. Azərbaycan artıq diqqət mərkəzindədir".

**Politoloq NATO və AB dövlətləri ilə yanaşı, Azərbaycanın ABŞ-la münasibətlərinin də inkişafda olduğunu deyir edir.** "Azərbaycan Qoşulmama Hərəkatının üzvü olsa da, AB və ABŞ-la yanaşı, Rusiya ilə də yaxın qonşuluq əlaqələrini inkişaf etdirir. Bizim AB ilə əməkdaşlığımız üçüncü bir dövlətə qarşı yönəlməyib. Azərbaycan NATO-ya daxil olmaq haqqında hansısa mesaj verməyib. Bununla belə, Qərbin Azərbaycana yaxınlaşmasından Rusiya narahatdır. Moskvanı narahat edən əsas məsələ isə NATO-nun bölgədə boy göstərməsidir. Amma Azərbaycan NATO-nun hərbi-siyasi yox, humanitar layihələrində iştirak edir", - deyə o qeyd edib.

**O ki qaldı Azərbaycanın "Rus NATO-su"na - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlüyünün mümkünlüyünə, sabiq dövlət müşaviri hesab edir ki, hələlik şərtlər Azərbaycanın quruma üzvlüyü üçün uyğun deyil:** "Azərbaycan Avrasiya İttifaqı və KTMT-yə o halda meyllənə bilər ki, Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar geri qaytarılmaqla, ərazi bütövlüyümüz bərpa olunacaq. Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür, neytral ölkədir, tarazlaşdırılmış xarici siyasət yürüdür. Heç bir halda hansısa dövlətə qarşı hazırlamış layihədə iştirak etmir. Rusiya və İrana qarşı tətbiq edilən sanksiyalarda iştirakçı deyil. Azərbaycan yalnız öz problemlərinin həlli ilə məşğuldur. Hərbi fəaliyyətini də ancaq öz ərazilərini işğal etmiş Ermənistana qarşı yönəldib. Ölkəmizin əsas hədəfləri ərazi bütövlüyünü bərpa etmək, iqtisadiyyatını inkişaf etdirmək, əhalisinin rifah halını yüksəltmək və inkişaf etmiş müasir dövlətlər sırasında yerini qorumaqdır".

*****

**Politoloq Elçin Mirzəbəyli isə ehtimal edir ki, prezident Əliyevin Rusiya səfəri çərçivəsində Azərbaycan üçün fundamental əhəmiyyətli məsələ - Azərbaycanın ərazi bütövlüyünün bərpası müzakirə ediləcək.**

"İstər ATƏT-in Minsk Qrupunun həmsədri kimi, istərsə də işğalçı Ermənistana təsir edə bilən ölkə olaraq Rusiyanın münaqişənin həll prosesində oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, səfər çərçivəsində bu məsələlərə diqqət ayrılacaq", - deyə o qeyd edib.

**Elçin Mirzəbəyliyə görə, səfərdə tərəflər arasındakı münasibətlərin, xüsusilə də iqtisadi əməkdaşlığın şaxələndirilməsi və qarşılıqlı investisiyaların yatırılması məsələlərinin də müzakirə ediləcəyi ehtimal olunur:** "Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən və nəzərdə tutulmuş üçtərəfli formatların inkişaf etdirilməsi haqda müəyyən müzakirələr aparıla bilər. Söhbət Rusiya-Azərbaycan-İran, Rusiya-Azərbaycan-Türkiyə formatlarından gedir".

Demək, səfər ən çox işğalçı Ermənistanda narahatlıq yaradacaq. O Ermənistan ki, onun birinci şəxsi - baş nazir Nikol Paşinyan gələn ay ABŞ-a səfərə hazırlaşır və onunla Putin arasında etimadsızlıq az qala, aybaay güclənir. Bu mənada sentyabr istər Moskva-İrəvan, istərsə də Moskva-Bakı münasibətlərində əhəmiyyətli dərəcədə aydınlaşma, hətta dönüş ayı kimi yadda qala bilər...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018

**Bu ilin mayında ABŞ prezidenti Donald Tramp ABŞ-ın İran və 6 beynəlxalq vasitəçi (Rusiya, ABŞ, Britaniya, Çin, Fransa, Almaniya) arasında 2015-ci ildə nüvə probleminin həlli barədə imzalanan sazişdən çıxmasını bəyan etdi. ABŞ prezidenti bəyan etdi ki, İrana qarşı bütün sanksiyalar bərpa olunacaq. Artıq sanksiyaların ilk paketi imzalanıb, növbəti və daha əhatəli sanksiya qərarı verilmək üzrədir. İranla ABŞ arasında gərginlik artan xətt üzrə davam edir. Tərəflər arasında qarşıdurma meylləri durmadan güclənir.**





# İrana qarşı ABŞ sanksiyaları: Bakı qoşulsun, qoşulmasın?

## Tofiq Abbasov: “Bunu birmənalı söyləmək çətindir”

**Azərbaycan bu durumda hansı mövqe sərgiləməlidir?**

**Politoloq Tofiq Abbasov deyir ki, ABŞ sanksiyalarına hər bir dövlət öz maraqlarından çıxış edərək və beynəlxalq qanunlara uyğun olaraq münasibət sərgiləməlidir:**

“ABŞ-ın bir neçə qütblə, o cümlədən Avropa dövlətləri, Avropa İttifaqı ilə yeni problemləri, yeni ixtilafları yaranıb. ABŞ öz dominant statusundan istifadə etməklə çalışır ki, özünün maraqlarından doğan sanksiyalara beynəlxalq qanunlar statusu verilsin. Müəyyən mənada beynəlxalq təşkilatlar, əsasən BTM-yə nüfuz olunur ki, təşkilatın müvafiq qurumları sanksiyaları hüquqi cəhətdən qanun formasına salsın, otuşdursun. Bu baxımdan İrana qarşı sanksiya qərarı veriləndə BMT-nin Təhlükəsizlik Şurasında təmsil olunan "5-lər" arasında müzakirə olundu. Yekdilliklə belə qərar verildi ki, əgər İran nüvə proqramını davam etdirirsə, deməli, sanksiyalar qaçılmaz olmalıdır. 5 ölkə birmənalı olaraq sanksiyalara razılıq verdi. Ona görə də sanksiyalar beynəlxalq səviyyədə tanındı, qanuni şəkil aldı".

**Tofiq Abbasov bildirir ki, 2015-ci ildə İranla nüvə proqramı ilə bağlı imzalanmış sazişdən sonra sanksiyaların aradan qaldırılması qaçılmaz olmuşdu. Bu, ümumilikdə regionun xeyrinə olan bir saziş idi:**

“Həmin sazişə görə İranın uran üzrə araşdırmaları davam etdirməsi yasaqlanmırdı. Sazişdə qeyd olunurdu ki, bu araşdırmalar MAQATE (Atom Enerjisi üzrə Beynəlxalq Agentlik) - BMT-nin ixtisaslaşdırılmış agentliyi mütəxəssisləri tərəfindən mütəmadi izlənməli, araşdırılmalıdır. İran bu sazişə bu günə qədər sadiqdir. Donald Tramp bu ilin mayında həmin sazişdən birtərəfli qaydada çıxdıqlarını elan etdi. Bu isə yeni bir situasiya yaradıb. Sazişi imzalayan Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya İranla əməkdaşlığı davam etdirəcəklərini bəyan ediblər. Elan ediblər ki, ABŞ-ın sazişdən çıxması onların mövqelərinə təsir etmir. Üstəlik, Avropa İttifaqı xüsusi bir sənəd hazırlayıb, həmin sənəddə ABŞ-ın sanksiya siyasətinə məhəl qoymayacaqları bəyan olunur və İranla əməkdaşlığı davam etdirəcəkləri birmənalı şəkildə vurğulanır. Azərbaycana gəldikdə isə beynəlxalq təşkilatlar, BMT həmin sanksiyaları qanun şəklinə salacağı təqdirdə ölkəmiz həmin sanksiya və məhdudiyyətlərə riayət etməlidir. Əgər sanksiyalar qanunlarla bərkidilməyəcəksə, Azərbaycan sanksiyalara məhəl qoymaya bilər”.

**Politoloq deyir ki, İranın təqib olunmasına qarşı ortaya mövqe qoyan dövlətlər var:** “Hazırda İran ABŞ tərəfindən qovulan, təqib olunan bir dövlətə çevrilib. ABŞ-ın sanksiya qərarlarına artıq sərt mövqe bildirən dövlətlər də var - Çin, Hindistan, Türkiyə, Rusiya və İranın ətrafında olan bəzi dövlətlər sanksiyalara qarşı mövqe ortaya qoyublar. İraqın son dövrlərə qədər İrana qarşı sanksiyalara münasibəti xoş deyildi. Hazırda isə İraqın sanksiyalarla bağlı mövqeyi dəyişib. Açıq bəyan ediblər ki, ABŞ təzyiq göstərsə, İranla münasibətləri dayandıracağıq. Hər ölkə öz maraqlarından çıxış edərək sanksiyalara münasibət formalaşdırır. Ona görə də sanksiyalarla bağlı hər bir dövlətin individual yanaşması var. Azərbaycanın İranla ikitərəfli və inkişaf etməkdə olan münasibətləri var. Neft kontraktlarında 2 İran şirkəti iştirak edirdi. ABŞ sanksiya tətbiq edəndə həmin o 2 şirkətə şamil etmədi. Çünki həmin layihələrin varlığı özlərinə lazımdır. Bu, çox maraqlı bir məqamdır. Qərb öz maraqlarına toxunmasın deyə bu 2 İran şirkətinin adını sanksiya tətbiq ediləcək İran şirkətlərinin siyahısına salmadı”.

**Tofiq Abbasov yada salır ki, Azərbaycan, İranla həm ikitərəfli, həm də beynəlxalq layihələr çərçivəsində əməkdaşlıq edir:** “Şimal-Cənub dəhlizində Azərbaycan ABŞ-ın sanksiyalarına baxmayaraq öz öhdəliklərini yerinə yetirəcək. Bu, beynəlxalq səviyyədə təsdiq olunmuş layihədir. Bu layihənin xeyri təkcə İran, Azərbaycan və Rusiyaya deyil, həmçinin digər dövlətlərin də maraqlarına uyğundur. Hazırda Azərbaycanın ABŞ sanksiyalarına qoşulub-qoşulmayacağını birmənalı söyləmək çətindir. Çünki individual məsələlər, maraqlar, layihələr, çərçivələr var. Ola bilsin ki, ölkəmiz məhdudiyyətlərin bəzilərinə riayət edəcək, bəzilərinə isə yox”.

❑ **E.MƏMMƏDƏLİYEV,
“Yeni Müsavat”**

# Türkiyə və ABŞ arasında kim vasitəçi ola bilər?



## Elxan Şahinoğlu: “Həm Bakı, həm də Astana Vaşinqtona mesajlar göndərməlidir ki...”

**Türkiyə ilə Amerika arasında gərginləşən münasibətlərin fonunda bir məsələ yenidən aktuallaşıb. Dövlətlərarası barışığın əldə olunmasında hansı dövlətlərin mühüm rol oynaya biləcəyi müzakirə olunur. Bu sırada ən çox adı keçən ölkə Azərbaycandır.**

Buna səbəb 2015-ci ilin noyabrında rus təyyarəsinin vurulması ilə Türkiyə-Rusiya arasında yaranan və aylarla davam edən qarşıdurmadır. Həmin vaxt Azərbaycan və Qazaxıstan prezidentləri iki ölkə arasındakı gərginliyin aradan qaldırılması üçün bütün səylərini səfərbər etmiş, sonunda Türkiyə-Rusiya barışığının əldə olunmasında mühüm rol oynamışdılar.

Ekspertlər Türkiyə-Amerika gərginliyinin digər dövlətlərin vasitəçi olmasından sonra aradan qaldırılacağını düşünürlər. Burada isə ən müxtəlif dövlətlərin adı çəkilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Türkiyə Azərbaycanın strateji müttəfiqidir, ABŞ isə yaxın tərəfdaşıdır:** “Azərbaycanın ABŞ-la münasibətlərində gərginlik yoxdur. Buna baxmayaraq, Türkiyənin ABŞ-la münasibətlərindəki gərginliyin Azərbaycana da müəyyən mənfi təsirləri ola bilər. Birincisi, Türkiyə-ABŞ münasibətlərinin gərginlik fonunda Türkiyə Rusiya ilə yaxınlaşır. Əlbəttə, Türkiyənin Rusiya ilə yaxınlaşması Azərbaycanın maraqlarının əleyhinə deyil. Hətta bu yaxınlaşmanın Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsiri olacağını söyləyənlər də var. Ancaq Türkiyənin Rusiya ilə daha çox yaxınlaşması Azərbaycanı da Rusiya ilə daha çox yaxınlaşmağa məcbur edə bilər. Təsadüfi deyil ki, Azərbaycanda bəziləri artıq Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü mümkünlüyündən danışırlar. Bunu deyənlər həm də Türkiyə-Rusiya yaxınlaşmasına istinad edirlər. Halbuki indiki şərtlər altında Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü Azərbaycanın maraqlarına cavab vermir. Azərbaycan uzaqbaşı Türkiyə kimi Avrasiya İqtisadi Birliyinə müşahidəçi statusuna razılaşa bilər. İkincisi, Türkiyədə hakimiyyətə yaxın çevrələr rəsmi Bakının Amerika ilə münasibətlərinə göz gəzdirməsini rica edə bilərlər. Oxşar hadisə bir dəfə baş verib. Türkiyənin İsraillə münasibətləri pisləşəndə Türkiyənin Azərbaycandakı səfiri Azərbaycanın da Türkiyə ilə münasibətlərinə yenidən baxması vacibliyini dilə gətirmişdi. O zaman rəsmi Bakı İsraillə münasibətlərinə yenidən baxmadı. Çünki rəsmi Bakı İsraillə münasibətlərinə yenidən baxsaydı, bu dövlətdən silah alışı məsələsində çətinlik çəkərdi. Türkiyə-İsrail münasibətləri sonrakı illərdə gərginlik mərhələsindən çıxdı. Buna baxmayaraq, Türkiyənin müəyyən dairələrində Azərbaycan-İsrail münasibətlərinin indiki səviyyəsindən narahat olanlar hələ də var. Halbuki Azərbaycan-İsrail münasibətləri heç bir dövlətə



qarşı yönəlməyib. Əsas məqsəd İsrailə neft satıb Azərbaycanın maliyyə imkanlarını artırmaq, həmçinin İsraildən müasir silahlar alıb işğalçı Ermənistana təzyiqi artırmaqdır”.

**Politoloq onu da qeyd etdi ki, Azərbaycan üçün ən ideal variant Amerika-Türkiyə münasibətlərinin yenidən normallaşmasıdır:** “Əlbəttə, tam normallaşma baş verməyəcək. Ancaq heç olmazsa iki dövlət arasında yenidən dialoqun qurulması Azərbaycanın da maraqlarına cavab verir. Çünki eyni ilə Türkiyə-Rusiya münasibətləri gərginləşəndə də bu da Azərbaycanın maraqlarına zidd idi. Məsələn, bu ərəfədə, yəni 2016-cı ilin aprel ayında cəbhə bölgəsində vəziyyət gərginləşəndə rusiyalı rəsmilər və ekspertlər deyirdilər ki, Türkiyə Azərbaycan vasitəsilə Cənubi Qafqazda gərginliyi artırır. Halbuki bu versiya kökündən yanlış idi. Azərbaycan ordusu işğalçı Ermənistan ordusunun təxribatına cavab olaraq əks-hücuma keçmiş və strateji yüksəkliyi ələ keçirmişdi. Bu əməliyyatın Türkiyə ilə bağlılığı yox idi. Buna baxmayaraq, o zaman Rusiya-Türkiyə münasibətləri gərgin olduğuna görə Moskva hər məsələdə Türkiyədən şübhələnirdi. Amerikanın Rusiya kimi Cənubi Qafqazda özəl maraqları yoxdur. Ancaq Amerika Azərbaycanın enerji resurslarının dünya bazarlarına daşınmasını dəstəkləyir, təhlükəsizlik sahəsində əməkdaşlıq mövcuddur. Əslində bu platforma Amerika Türkiyə münasibətlərində də mövcuddur. Amerikanın Türkiyədə hərbi bazası var, türkiyəli hərbçilər NATO çərçivəsində Əfqanıstanda qulluq edirlər, üstəgəl Ankara və Vaşinqton TAP layihəsində eyni maraqlardan çıxış edirlər. Türkiyə-Rusiya münasibətlərinin normallaşmasında Bakı və Astana vasitəçi rolunda çıxış etdilər. Bakı və Astananın indiki halda da Amerika-Türkiyə münasibətlərində vasitəçi olması çətindir. Çünki Amerika-Türkiyə münasibətlərində problemli mövzuların sayı çoxdur. Həm də Amerikanın rahib Endryü Bronsonun sərbəst buraxılması ilə bağlı Ankaraya ultimatumu var. Buna baxmayaraq, həm Bakı, həm də Astana Vaşinqtona mesajlar göndərməlidirlər ki, ABŞ-Türkiyə münasibətlərinin gərginliyi Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinə də mənfi təsir edir, həmin dövlətləri çətin seçimə sürükləyir, üstəgəl, bölgədə Rusiyanın imkanlarını artırır. Bu isə Amerikanın geosiyasi maraqlarına cavab verməməlidir”.

❑ **Cavanşir ABBASLI,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018

# Paytaxtda kirayə mənzillərin qiymətləri qalxıb

## Söküntü ilə əlaqədar Bakıda boş ev tapmaq çətinləşib; qiymətlər 250-400 arası dəyişir...

**Yeni tədris ilinin başlamasına bir aydan da az vaxt qalır. Universitetlərin əksəriyyətinin ya yataqxanası yoxdur, ya da məcburi köçkünlər yerləşdirilib. O üzdən bölgələrdən paytaxta gələn tələbələr məcburən kirayə mənzil tutmalıdırlar. Kirayə mənzillərin qiyməti isə...**

Elə bunu öyrənmək üçün fotoqrafımız Elçinlə metronun "Neftçilər" stansiyası yaxınlığında yerləşən "makler bazarı"na baş çəkdik. Çatar-çatmaz bir neçə "makler" yaxınlaşıb nə istədiyimizi soruşsa da, jurnalist olduğumuzu öyrənincə uzaqlaşdılar. Təkcə Hidayət dayıdan başqa.

Hidayət Süleymanov 14 ildir bu işlə məşğuldur. Ona qədər bir neçə universitetdə dərs deyib. Təqaüdə çıxandan sonra bekar qala bilməyib, bu işə başlayıb.

**Kirayə mənzillərin qiyməti ilə maraqlanırıq. Deyir, hər qiymətə mənzil var:** "Tələbələr ucuz və şəraitli ev istəyir. Paltaryuyanı, kondisioneri, interneti və s. Özüm də tələbə vaxtı kirayə qalmışam, paltarlarımı özüm yuyurdum. İndikilər deyir, evin paltaryuyanı olsun. Paltaryuyan olanda da evin qiyməti bahalaşır".

Onun sözlərinə görə, hazırda orta təmirli, normal şəraitli və əşyalı 1 otaqlı mənzillərin qiyməti 250 manatdan, 2 otaqlı mənzillər 250-300 manatdan, 3 otaqlı mənzillər isə 350-400 manatdan başlayır. Əla təmirli evlər daha bahadır.

**Həmsöhbətimiz hazırda əlində tələbələr üçün əla bir təklifin olduğunu da deyir:** "Ayna Sultanova tərəfdə 4 otaqlı mənzil var. Bir otağında mehriban, qayğıkeş, olduqca mədəni xanım ev sahibi qalır. Otaqlardan birini isə iki tələbə qıza kirayə verməyə hazırlaşır. Bir otaq 200 manata. Ev şəraitlidir". **H.Süleymanovun sözlərinə görə, bu, tələbə qızlar üçün əla fürsətdir. Çünki bu dəqiqə kirayə ev tapmaq çətindir. Səbəbini Hidayət dayı izah edir:** "Söküntü ilə əlaqədar Bakıda boş kirayə ev tapmaq müşkülə dönüb. Sökülən binaların sakinləri müvəqqəti kirayə mənzillərə yerləşdirilib. Kirayə ev axtaranların 30 faizi ev tapa bilir, qalan 70 faizi isə yox. Bununla əlaqədar kirayə mənzillərin qiymətində də bahalaşma müşahidə edilir. Ötən illə müqayisədə kirayə evlərin qiyməti 30-40 faiz bahalaşıb".

**Söhbətin bu yerində bir kişi yaxınlaşır. Tələbə adını qazanmış qohumu üçün kirayə evlərlə maraqlanır. Hidayət dayı qiymətləri və bir neçə variantı sadalayır. Qiymətləri eşidincə, kişinin qaşları çatılır. Təəccübünü gizlətmədən deyir:** "300 manat? Qardaşımın aylıq gəliri heç 500 manat eləmir. Rayonda balaca mağaza işlədir. Külfət ailədirlər. Qazandığının 300 manatını kirayə versə, özləri acından ölər ki?!"

Hidayət dayı kişini sakitləşdirir. Nisbətən ucuzlarını da tapmaq olar. Həm tələbə qızlar adətən tək qalmırlar. Hər otaqda 2 qız qalsa, 300 manatı 4 yerə böləcəklər. Eləcə də digər xərclər dördə bölünsə, bir adama çox güc düşməz.

**Hidayət dayı kişiyə bir qədər gözləməyini xahiş edib, yenidən üzünü mənə tutur. Söhbətə qaldığımız yerdən davam edirik. Makler hələ də ev tapmamış tələbələr üçün həyət evlərini tövsiyə edir:** "Həyət evlərinin qiyməti bina evlərinə nisbətən həmişə ucuz olur. Baha olmasına baxmayaraq, tələbələr bina evlərinə üstünlük verirlər. Evlərin metro çıxışlarına yaxın olması daha arzuolunandır. Metro çıxışlarında olan mənzilin qiyməti nisbətən uzaqdakı mənzillərdən 100 manat baha olur. Əsasən də təhlükəsizlik, vaxta və marşrut xərclərinə qənaət etmək üçün mənzillərin metroya yaxın olmasını istəyirlər".

**"Kirayə ev tapmaq qızlar, yoxsa oğlanlar üçün daha çətindir" sualına onun cavabı belə olur:** "Oğlanlara əlbəttə ki... "Xozeyka"lar qız tələbələrə daha çox üstünlük verirlər. Qızlar həm səliqəli, həm də təmizkar olurlar. Oğlanlar isə səs-küylü, üstəlik, dağınıq və natəmiz olurlar. Evə gedib-gələnləri də çox olur. Bu da qonşuların narazılığına səbəb olur".

**Natəmizlikdən söz düşmüşkən Hidayət dayı ərəb mövzusuna da toxunur. Daha doğrusu o ki var gileylənir:** "Düzdür, ərəblər daha bahalı evlərdə qalırlar, amma yaman pintidirlər. Çörəyi dizlərinə qoyub yeyirlər. Yaşadıqları evləri "it gününə" qoyurlar".

**Mövzudan uzaqlaşmamaq üçün ərəbləri öz allahına "tapşırıb", tələbələrə qayıdırıq. Hidayət dayı tələbələrə ürəyi yandığını deyir:** "Təsəvvür edin, uşağınız məktəbə girib, sevinirsən, sonradan xərclər o qədər çox çıxır ki, bilmirsən, uşağın boğazına pul çatdırasan, ya kirayə xərclərini ödəyəsən, ya qışda üşüməsin deyə, palto alasan? Bizim vaxtımızda tələbə yataqxanaları vardı. Kimin imkanı vardı, kirayə mənzil tuturdu, mənim kimi kasıb balaları da yataqxanada qalırdı. İndi o yataqxanalar da yoxdur. Tələbə məcburdur kirayə mənzil tutsun. Amma hansı pulla?.."







**❑ Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**
**Foto Elçinindir**

# Bakıya küçə təmizləyən maşınlar gətirildi: süpürgəçilərə təhlükə sovuşur?

## Ekspert: "Yol kənarını süpürən qadınları "texnikamız var" deyib, işsiz qoymaq da olmaz..."



**Bakıda tez-tez magistral yolların kənarını süpürən qadınları maşın vurması ilə bağlı xəbərlər yayılır. İctimaiyyətdə də geniş müzakirələrə səbəb olan bu problemdən müxtəlif çıxış yolları təklif edilir, ekspertlər tərəfindən müvafiq texnikaların gətirilməsi təklif olunur.**

Artıq Bakı küçələrini təmizləmək üçün müvafiq texnikanın gətiriləcəyi ilə bağlı məlumatlar yayılıb. Belə ki, məlumata görə, Bakıya küçələri təmizləməsi üçün Almaniya istehsallı 10-a yaxın texnika gətirilib. Səbayel Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini İsrafil Kərimov "Trend"ə bildirib ki, Bakı yollarında təmizlik işləri aparan təsərrüfat işçilərinin əməyinin yüngülləşdirilməsi, iş prosesində onların təhlükəsizliyinin təmin olunması ilə bağlı ölkə başçısının tapşırıqlarına əsasən, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən kompleks tədbirlər hazırlanıb. Tədbirlərin həyata keçirilməsi ilə əsas magistral yollarda, prospektlərdə zibilin yığışdırılması tamamilə avtomatlaşdırılacaq. Bu proqramın hazırlanmasına avropalı aparıcı ekspertlər cəlb olunub və hazırda onların təklifləri müzakirə olunur.

Onun sözlərinə görə, istənilən halda iş prosesində əl əməyinin qalacağı nəzərə alınaraq, onun minimuma endirilməsi üçün tədbirlər həyata keçirilir və küçələrdə, xüsusilə də əsas magistral yol və prospektlərdə təsərrüfat xidmətləri işçilərinin təhlükəsizliyinin təminatı üçün xəbərdaredici nişanlar hazırlanıb və rayon mənzil kommunal təsərrüfatı birliklərinə paylanıb. İctimaiyyətdə bu kimi texnikalar gəldiyi zaman süpürgəçi qadınların işdən azad ediləcəyi məsələsi də müzakirə edilir.

**"Yeni Müsavat"a danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynov bildirib ki, əslində burada müvafiq tənzimlənmə işləri aparılmalıdır:** "Hazırda mənzil istismar idarələri tərəfindən formalaşdırılan müəyyən komandalar var. Lakin bu məsələ ilə bağlı tez-tez problemlərin də şahidi oluruq. Bakı şəhərində bu məsələlər fundamental şəkildə həllini tapmalıdır. Xüsusilə də yaşlı qadınların küçə süpürmək işinə cəlb edilməsi məsələləri şiddətli ictimai qınağa çevrilib. Son bir ildə gecə saatlarında, işıqlanma zəif olan ərazilərdə 4 qadını müxtəlif nəqliyyat vasitəsi vurub öldürüb. Dünyanın hər yerində küçələri təmizləyən və küçənin sağ və sol kənarlarında kiçik zibilləri sorulmasını həyata keçirən texnikalar olur. Bu texnikalar bizdə qadınların gördükləri işi yerinə yetirirlər. Hesab edirəm ki, burada ziddiyyətli məsələ yaranır. Bir tərəfdən biz Bakının böyük turist şəhərinə çevrilməsinə çalışırıq. İstəyirik ki, gələn turistlər belə mənzərəni görməsinlər. Digər tərəfdən isə səhər saatlarında küçələri yaşlı qadınlara təmizlədirik. Səhər saatlarında yaşlı qadınların küçə təmizliyinə cəlb olunması heç də ürəkaçan və yaxşı hal kimi görünmürdü".

**Ekspert bildirib ki, hazırda gətirilən texnikalar Bakının əsas küçələrini təmizləyəcək:** "Təbii ki, bu texnikalar əsas mərkəzi küçələri təmizləyəcək. Kənar yerlərdə yenə də insan əməyindən istifadə olunacaq. Mikrorayonlara texnikaların cəlb olunması prosesi hələ bir qədər zaman aparacaq. Lakin bütövlükdə bu, özü-özlüyündə müsbət haldır. Burada hazırda küçəni təmizləyən insanların texnikalar gəldikdən sonra işsiz qalması məsələsi də var. Prosesə bu baxımdan yanaşsaq, təbii ki, xeyli sayda insan işsiz qala bilərlər. Ancaq dövlət bu məsələni bu və ya digər formada kompensasiya etməlidir. Həmin insanlar başqa işlə təmin olunmalıdır. Azərbaycan Respublikasının "Məşğulluq haqqında" Qanunu var. Hər bir şəxs işini itirirsə, avtomatik olaraq o, məşğulluq idarələrində qeydiyyata alınacaq. Bundan sonra isə əvvəlki əmək haqqını almaq şərti ilə yeni işlə təmin olunana qədər bu işçinin hüquqlarının qorunması məsələsi aktual olaraq qalır. Bu imtiyazlardan həmin insanlar nə qədər yararlana biləcəklərsə, bu, artıq başqa məsələdir. Ola bilər ki, yaşlı insanları pensiyaya göndərsinlər, bir qədər gənc olanları isə işlə təmin etsinlər. Ancaq bütövlükdə götürəndə bu, şəhərin sivilizasiya imkanlarının genişləndirilməsi baxımından vacib addımdır. Küçələrdə, magistral yollarda texnikalar işləməlidir. Avropanın çox böyük ölkələrində səfərdə olduğum zaman xüsusilə bu məsələlərlə bağlı da maraqlanırdım. Heç bir ölkədə şahidi olmadım ki, küçələrə kütləvi şəkildə yaşlı qadınları salıb, yolları təmizlətsinlər. Avropada bütün bu məsələlər hələ illər öncədən texnikalaşdırılıb. Bizdə də yavaş-yavaş bu sistem həyata keçiriləcək. Ancaq eyni zamanda ölkədə həm də işsizliyin azaldılması məsələsini qarşıya məqsəd kimi qoymuşuqsa, yol kənarını süpürən yaşlı qadınları "texnikamız var" deyib, işsiz qoymaq da olmaz. Bütün bunlar nəzərə alınmaqla, konkret təhlillər aparılmalı və yekunda heç kəsi pis vəziyyətə salmayan qərar qəbul edilməlidir".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**


# Qarabağ düşmən ölkədə spekulyasiya mövzusuna çevrilir

## Beynəlxalq qurumlar Azərbaycanın müharibə hüququnu tanıyır, Ermənistanın bu yöndə kontur-səyləri fiasko olub; **rusiyalı politoloq:** "Paşinyan öz postunda müvəqqətidir..."



**İşğalçı Ermənistanda hakimiyyətin inqilabi yolla dəyişməsindən sonra gedən proseslər təbii ki, ən çox Rusiya və Azərbaycanda izlənməkdədir. Rusiya prosesi ona görə diqqətlə izləyir ki, Paşinyan iqtidarının nə dərəcədə Ermənistanı Qərbə tərəf apara biləcəyinə əminlik hasil edib, bunun qarşılığında adekvat tədbirlər görə bilsin. Kremin əsas qayğısı forpost Ermənistanı öz siyasi və təhlükəsizlik orbitindən uzağa buraxmamaqla bağlıdır.**




Azərbaycana gəlincə, bizi təbii ki, ən çox düşmən ölkədəki vəziyyətin sülh danışıqlarına, bütövlükdə Dağlıq Qarabağ məsələsinə, işğal altındakı torpaqlarımızın taleyinə təsiri maraqlandırır. Ermənistandakı daxili siyasi qarışıqlıq ərazilərimizin əhəmiyyətli hissəsinin qısa zamanda hərb yolu azad edilməsi üçün fürsət də yarada bilər - bir şərtlə ki, bu zaman Rusiya faktorunun neytrallığı təmin olunsun. Siyasi analitiklərin Ermənistanda gedən proseslərlə bağlı maraqlı rəyləri var.

*****

**"Paşinyan öz hakimiyyətini və Ermənistanın müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzədir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri deputat Asim Mollazadə axar.az-a açıqlamasında işğalçı ölkədəki son durumu şərh edərkən deyib. Onun fikrincə, Paşinyanın qeyri-müəyyən siyasəti Ermənistandakı mövcud böhranı daha da dərinləşdirir.**

"Paşinyanın siyasətinin konturları hələ də naməlum olaraq qalır. O, Rusiya prezidenti ilə üç dəfə telefon danışığı aparması və görüşləri ilə fəxr edir. Eyni zamanda Paşinyan Brüsseldə olarkən ölkəsinin Avropa yönündə inteqrasiyasından danışdı. Ermənistanın rəhbərliyi bu qeyri-müəyyən xətti indi də ABŞ və İranla davam etdirir. Onun ABŞ-a səfəri gözlənilir. Erməni diasporu hazırda bu istiqamətdə çox böyük səylər göstərir. Düzdür, bu səfər baş tuta bilər, ancaq ABŞ siyasətçilərindən fərqli olaraq D.Trampın erməni diasporasının qarşısında hansısa məsuliyyəti yoxdur".

**A.Mollazadə bu səbəbdən hesab edir ki, Paşinyanın Trampla görüşə olan ümidləri boşa çıxacaq:** "Ermənistanda hazırda gərginlik, qarşıdurma meylləri artmaqdadır. Hakimiyyətini və Ermənistanın müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalan Paşinyanın qeyri-müəyyən siyasəti İrəvanı uçuruma aparır. Ermənistanın yeganə xilas yolu sülh, yəni Azərbaycanın ərazilərinin azad edilməsi istiqamətində addımların atılmasından ibarətdir. Əks halda, Paşinyan nə öz hakimiyyətini, nə də Ermənistanın müstəqilliyini qoruya biləcək".

**Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru, tanınmış politoloq Sergey Markov isə istisna etmir ki, Paşinyan öz postunda müddətlikdir. Bu fikri o, "Moskva-Bakı" portalına müsahibəsində deyib (oxu.az).** "Onun rəhbərliyi ilə Ermənistan zəifləməkdə davam edir, qonşu Azərbaycan isə strateji cəhətdən güclənir. Paşinyan siyasi vaxtını illərlə deyil, aylarla ölçmək məcburiyyətindədir. Bakı və Moskvanın münasibətlərinin yüksək səviyyədə olması İrəvanı narahat etməlidir" - rusiyalı ekspert bildirib.

**Bununla yanaşı, ekspertin sözlərinə görə, Paşinyanın yeni rəqibinin peyda olmasından danışmaq hələ tezdir:** "Paşinyan Ermənistanın siyasi həyatında tam üstünlük qazanıb. Səhv etmirəmsə, hazırda onu 80 faiz insan dəstəkləyir. Hələlik hər hansı rəqibi gələcək üçün potensial kimi görmək lazımdır".

**Paşinyanın cümə günü keçirdiyi mitinqdə yeni hökumətin Qarabağı geri qaytaracağı ilə bağlı fikirləri inkar etməsinə münasibət bildirən Markov deyib ki, yeni lider xələflərinin qoşunlarının bu torpaqlardan keçmək istədiyini və əlində kifayət qədər sübutunun olduğunu bildirib. Markov əlavə edib ki, yeni baş nazirinin Qarabağla bağlı mövqeyi dəyişməzdir.**

"Paşinyan üçün Qarabağla bağlı güzəştə getmək çox təhlükəlidir. Birincisi, Qarabağ klanına daxil olan rəqibləri Paşinyanı güzəştdə ittiham edir. İkincisi, Ermənistanda mitinq demokratiyası davam edir, Paşinyan da real hakimiyyəti tamamilə öz əlinə almalıdır. Ermənistanda ictimai fikir hakimiyyətə nisbətən daha radikaldır. Rəhbərlik başa düşür ki, Bakı ilə kompromisə getmək lazımdır. İctimaiyyət isə "kompromis" fikrini sevmir", - Markov qeyd edib.

Göründüyü kimi, Qarabağ məsələsi artıq yeni iqtidarın, baş nazir Nikol Paşinyanın əlində də spekulyasiya predmetinə çevrilib.

*****

**Öz növbəsində keçmiş dövlət müşaviri Qabil Hüseynli istənilən halda beynəlxalq hüququn Azərbaycanın tərəfdə olduğuna diqqət yönəldir. İslam Əməkdaşlıq Təşkilatından (İƏT) sonra Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ikinci qurum kimi Avropa Birliyinin (AB) adını çəkərək, xatırladır ki, qurum hələ 2013-cü ildə keçirilən zirvə toplantısında Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyini vurğulayıb:** "AB-nin Xarici siyasət komissiyasının ali nümayəndəsi Federika Mogerini dəfələrlə Dağlıq Qarabağ və ətrafındakı əraziləri Azərbaycanın sərhədləri daxilində tanıdıqlarını və münaqişənin yalnız bu istiqamətdə həll edilə biləcəyinin vacibliyini bildirib. NATO-nun son toplantılarında da ərazi bütövlüyümüz dəstəklənib. Alyansın ötən ilin sonlarında Varşavada, keçən ay isə Brüsseldəki sammitlərində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat qəbul edildi. Beləliklə, NATO AB-dən sonra Azərbaycanın ərazi bütövlüyünü tanıyan beynəlxalq qurumlardan biri oldu".

Politoloq hesab edir ki, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair 4 məlum qətnaməsi, NATO və AB-nin bəyanatları, həmçinin İslam Əməkdaşlıq Təşkilatının müvafiq sənədləri nəzərə alınarsa, həm Azərbaycanın özünün səyləri, həm də indiyədək mövcud olan standartların dəyişməsi nəticəsində Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllində beynəlxalq dəstəyin təmin edildiyini görə bilərik.

Bu isə o anlama gəlir ki, Azərbaycanın öz ərazi bütövlüyünü zor gücünə bərpa eləmək hüququ, müharibə etmək hüququ qalır. İşğalçı ölkəni daima narahat edən də elə bu hüquqdur...



# Ermənistanın eks-müdafiə naziri axtarışa verildi

**2008-ci il martın 1-də etiraz aksiyalarını dağıtmaqda ittiham olunan Ermənistanın keçmiş müdafiə naziri Mikayıl Arutyunyan beynəlxalq axtarışa verilib. Bu barədə Ermənistan polisinin rəhbəri Valeri Osipyan məlumat verib.**

"Arutyunyan haqqında beynəlxalq axtarış elan olunub, amma İnterpol xətti ilə deyil", - deyə o qeyd edib. Xatırladaq ki, 1 mart hadisələri zamanı 10 dinc nümayişçi öldürülüb.



# Rusiyada ÜAK-sız qalan azərbaycanlılar: yenidən təşkilatlanma niyə gecikir?

## Politoloq: "Azərbaycan diasporunun daxilindəki təşkilatsızlıq hələ də qalmaqdadır"

**Ötən ilin may ayında Rusiya Federasiyası Ali Məhkəməsində Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğvi barədə Rusiya Ədliyyə Nazirliyinin iddiası üzrə proses keçirildi. Ali Məhkəmə Ədliyyə Nazirliyinin iddiasını təmin edərək, ÜAK-ın qeydiyyatının ləğv olunması barədə qərar verdi. O zamandan etibarən hələ də ÜAK-ın fəaliyyəti bərpa olunmayıb.**

Ekspertlər hesab edirlər ki, Azərbaycanın Rusiyadakı diasporu xeyli zəifləyib. Bu baxımdan gözlənilir ki, Rusiyada qeyd olunan istiqamət üzrə yeni işlər aparılacaq. Gələn ay prezident İlham Əliyevin də Rusiyaya səfəri gözlənilir. Bəs bu səfər ÜAK-ın fəaliyyətinin bərpası istiqamətində hansısa stimul yarada bilərmi?

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu ümumi vəziyyəti dəyərləndirərək söylədi ki, əslində xeyli işlərin görülməsinə ehtiyac var:** "Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilən zaman Prezident Administrasiyasının rəhbəri, akademik cənab Ramiz Mehdiyev çox müəyyənləşdirici ifadə işlətdi. Bəlli oldu ki, ölkə rəhbərliyi komitənin rəhbərliyindən narazı olub. Yəni ona görə narazı olub ki, Azərbaycan diasporunda proseslər düzgün getməyib. Ola bilər ki, onlar hansısa qurumda konkret nəyisə nəzərdə tutublar. Ancaq fikir ümumi işlənib. Ona görə də deyə bilərəm ki, bu, həm də Rusiyadakı azərbaycanlıların diaspor təşkilatlarına bağlı olub. Ümid edirəm ki, komitənin yeni rəhbərliyi bütün prosesləri öz nəzarəti altına götürəcək və heç bir neqativ prosesin baş verməsinə şərait yaratmayacaq. Bu günlərdə Avropadakı bir qrup azərbaycanlının Kataloniyaya səfər etməsi də bizim diaspor komitəsi tərəfindən daha dəqiq işlənməli idi. İstənilən halda sabah Rusiyadakı azərbaycanlı da gedib, Abxaziyada oturub-durub söhbət edə bilər. Ona görə də bu, əsas şərt deyil. Hesab edirəm ki, Azərbaycan diasporunun daxilində baş verən təşkilatsızlıq indinin özündə də qalmaqdadır. Konkret olaraq ÜAK-a gəlincə isə deyim ki, Putin Azərbaycan prezidenti ilə sentyabr ayına olan görüşünü çox ciddi şəkildə anons edir. Hesab edirəm ki, Putinin anlamında Azərbaycan prezidenti cənab İlham Əliyevin Moskvaya planlaşdırılan səfəri təkcə iki dövlət arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı deyil, regionda olan bütün məsələlərlə bağlı çox konkret həll işləyib, hazırlayan səfər olacaq. Futbol üzrə Dünya Çempionatında bizim prezident Rusiyaya gedib Putinlə görüşdü. Ancaq Putin həmin görüşdə bir söz deməsə də avqustun 30-da olacaq görüşü anons etdi. Sonra isə görüşün vaxtını sentyabr ayına dəyişdi".



Mübariz Əhmədoğlu

**Ekspertə görə, bütün bunlar onu göstərir ki, prezidentlər arasında planlaşdırılan görüş çox mühümdür:** "Bu görüşdə bütün məsələlərin həlli gözlənilir. Eyni zamanda Azərbaycan tərəfi çalışacaq ki, Rusiya ərazisindəki azərbaycanlıların təşkilatlanmasını daha da təkmil formaya salsın. Çünki Rusiya Azərbaycan üçün vacib dövlətdir. Eləcə də bəllidir ki, artıq Rusiyanın zəifləyəcəyinə ümid bəsləmək, belə məsələlər üzrə ideya qurmaq kökündən yanlışdır. Rusiya güclü və güclənən dövlətdir. Putin növbəti dəfə prezident seçildikdən sonra onun Qafqaz siyasəti dəyişib. Ermənistan çətin vəziyyətdədir, də pisdir. Bir neçə rəhbər dəyişsə də heç bir faydası olmadı. Rəhbərlikdə olan adamlar ən böyük problemimiz olan erməni məsələsinə diqqət etmədilər. Vaxtilə bizim oradakı diaspora rəhbəri Söyün Sadıqovla Abramyan arasında sənəd imzalandı ki, guya hər biri öhdəlik götürürlər ki, Dağlıq Qarabağ məsələsini qaldırmayıb, erməni mövzusunda milli məsələni qızışdırmayacaqlar. Azərbaycan diasporunun rəhbəri nəzərə almadı ki, erməni diasporu Qarabağ məsələsinin adını tutmasa da, "erməni soyqırımı" məsələsini elə qabardacaq ki, Azərbaycanın Gürcüstanla bağlı isə Rusiya ancaq optimist işlər görür. Azərbaycanla da olan münasibətləri müsbətdir və bunun daha da yaxşılaşmasına çalışır. Ona görə də vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı olmadan Rusiya-Azərbaycan münasibətlərinin istənilən təkmil səviyyəsini almaq mümkün deyil. Baş verən son hadisələr deməyə əsas verir ki, Rusiyadakı azərbaycanlıların fəaliyyəti iki ölkə arasındakı münasibətlərin möhkəmlənməsi istiqamətində, Azərbaycanın maraqlarının Rusiyanın daxilində daim qorunması baxımından təkmilləşdiriləcək".

**Politoloq ötən bir il ərzində azərbaycanlıların Rusiyada apardıqları diaspora işlərini xeyli zəif qiymətləndirir:** "Rusiyadakı diaspora fəaliyyətimiz həddsiz dərəcədə maraqları tapdanacaq. Rusiya dövlətinin apardığı siyasətə qarşı da bizim diaspor rəhbərliyi aktiv iş görə bilmədi. Nəticədə Rusiyadakı azərbaycanlılar təkcə siyasi baxımdan deyil, biznes baxımından da ciddi itkilərə məruz qalıblar. Orada bizim diaspora rəhbərliyi yerində olsaydı, bu cür hadisələr yaşanmazdı. Eyni zamanda bizim Moskvaya yaxın regionlardan birinin diaspor rəhbəri həbs edilib və bu günə qədər də həbsdədir. Bu da bizim diaspor komitəsinin keçmiş rəhbərinin adına minusdur. Arzu edirəm ki, Azərbaycan diasporunun Moskvadakı fəaliyyəti həbs edilən liderin azadlığa buraxılmasından başlasın".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Merkel regiona səfərinə niyə Bakıdan deyil, Tiflisdən başlayır?



## Fərəc Quliyev: "Məsələdə mütləq kilsənin, xristian təəssübkeşliyinin təsiri var"

## Elçin Mirzəbəyli: "Son söz sahibi Azərbaycandır"

**Sabah Almaniya kansleri Angela Merkelin Cənubi Qafqaza səfəri başlayır. İlk olaraq, xanım kansler Gürcüstana səfər edəcək, ardınca Ermənistana gedəcək. Avqustun 25-də Merkel Azərbaycanda olacaq və bununla da Cənubi Qafqaz səfərini başa vuracaq.**

Alman kanslerin səfərinə Tiflisdən başlaması maraq doğurur. Görəsən, səfər qrafikində belə bir ardıcıllıq nə ilə bağlıdır? Məsələdə texniki, yoxsa siyasi amil rol oynayır?

Səslənən mövqelərdən biri son illərdə Avropa yolunda uğurla addımlayan Gürcüstana Almaniyanın Cənubi Qafqaz ölkəsi kimi daha çox önəm verdiyi yönündədir. Merkelin Tiflisdən İrəvana səfərini planlaşdırmasını "məxməri inqilab"dan sonra Ermənistanın Qərbə meyl etməsi ilə əlaqələndirənlər var. Səfərin son gününün Azərbaycana salınması isə rəsmi Bakının balanslı siyasətə üstünlük verməsi ilə izah edilir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev siyasətdə texniki məsələnin olmadığını söylədi:** "Bütün dövlətlərin maraqları var və hər bir dövlət də öz maraqlarından çıxış edir. Azərbaycanın yerləşdiyi bölgə də çox aktivdir. Bu bölgə uğrunda daim savaşlar gedib. Xanım kanslerin buraya gəlişi də bu savaşlardan qaynaqlanır. Zahirən nəyin görünməsindən asılı olmayaraq, aysberqin görünməyən tərəfləri olur. Azərbaycan, Gürcüstan və Ermənistanı qazanmaqla strateji müttəfiqlik etməkdə hər kəsin marağı var. Amma bunların içərisində mütləq kilsənin təsiri, xristian təəssübkeşliyi var. Bu, hər zaman da belə olacaq. Kanslerlər, prezidentlər böyüdükləri ailələrdə o tərbiyəni alırlar. Xaç suyuna salındıqdan ömürlərinin sonlarına qədər kilsəyə mötəbər bir yer kimi baxırlar. Son zamanlar Azərbaycanın mövqeyində Qərbə doğru sərt şəkildə davranışlar müşahidə olunur. Qərbin aslılığından qurtulmaq üçün addımlar atılır. Buna görə hətta Azərbaycana qarşı təhdidlər də olur. Öz maraqlarına görə artıq ölkəmizlə bir yerdə olmaq üçün siyasət yürüdülür. Azərbaycanı dışlama siyasətindən əl çəkilməkdədir".

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a məsələni bu cür şərh etdi:** "Əslində səfərin marşrutunun xüsusi əhəmiyyət kəsb etmədiyini düşünürəm. Merkelin səfərinin marşrutuna ən müxtəlif rakurslardan yanaşmaq və qiymətləndirmək olar. Mənim baxış bucağımdan Azərbaycanın Cənubi Qafqazda son məntəqə kimi seçilməsi təsadüfi deyil. Azərbaycan regionda həyata keçirilən enerji və nəqliyyat layihələrinin təşəbbüsü və əsas iştirakçısıdır. Regionun ən önəmli iqtisadi gücü kimi son söz sahibi də, düşünürəm ki, Azərbaycandır. Bu baxımdan Gürcüstanda və Ermənistanda aparılacaq müzakirələrə Azərbaycanda yekun vurulması təbii qəbul olunmalıdır. Müzakirələrin Dağlıq Qarabağla bağlı hissəsinə gəldikdə isə yenə Azərbaycanın son məntəqə kimi seçilməsi tamamilə məntiqlidir. Çünki ölkəmizin Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi aydındır. Avropa İttifaqının münaqişənin həlli ilə bağlı mövqeyi ilə Azərbaycanın mövqeyi arasında ciddi fərq yoxdur. Çünki rəsmi Bakı da, Brüssel də münaqişənin ərazi bütövlüyü çərçivəsində həllini vacib sayır. Ermənistanın yeni rəhbərliyinin münaqişənin həlli ilə bağlı mövqeyi isə hələlik tam aydın deyil. Nikol Paşinyanın hakimiyyətə gəldiyi ilk günlərdə verdiyi bəyanatlarla indiki açıqlamalarının arasında ciddi fərq var. Məhz bu səbəbdən ilk növbədə mövqeyi aydın olmayan Ermənistan rəhbərliyinin fikirlərini almaq lazımdır ki, Azərbaycanda aparılacaq müzakirələrə hansı konrekstdən yanaşmanın mümkünlüyü nəzərə alınsın. Doğrusu, bu səfərin marşrutunda hər hansı bir qıcıqlandırıcı amil görmürəm. Almaniya son dövrlərdə qlobal proseslərdə fəallıq nümayiş etdirməyə çalışır. Türkiyə ilə ABŞ arasında yaranmış gərginliyə rəsmi Berlinin münasibəti də buna sübutdur. Merkelin səfərinin marşrutu ilə bağlı ən çox qıcıqlandırıcı xəbərlər ermənilərin resurslarında yayımlanır. Bu marşrut daha çox Ermənistanda müzakirə mövzusudur. Bu da Avropa İttifaqından gözlədiyi dəstəyi ala və bununla bağlı vədlərinə əməl edə bilməyən Paşinyan üçün ucuz təbliğat vasitəsindən başqa bir şey deyil. Eyni zamanda unutmaq lazım deyil ki, Almaniya Rusiya ilə münasibətlərində də ehtiyatlı davranır və aqressiv ritorika sərgiləməməyə cəhd göstərir. Bu baxımdan Merkelin səfərinin, yaxud səfərin marşrutunun Rusiyanı qıcıqlandıracağı barədə danışmağa dəyməz".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018





# "Rahat şəkildə 150 il yaşamaq olar, əgər..."

## Təbii üsullarla müalicə edən həkim Seyfəddin Əsəd yanlış qidalanma və həyat tərzinin ağır fəsadlarından danışdı

**Hələ qədim zamanlardan insanlar təbii üsullarla müalicəyə üstünlük veriblər. Tibb inkişaf etdikcə müasir həkimlər belə üsullarla müalicəni daha dərindən araşdırır, təkmilləşdirir, öz müalicə üslubunda istifadə etməyə çalışırlar. Bəs hazırda təbii üsullarla hansı xəstəliklərdən qurtulmaq mümkündür? Bu sahə üzrə tanınmış mütəxəssis, həkim Seyfəddin Əsədin qəbulunda olub, onun müalicə prosesini izlədik. Eyni zamanda həkimlə söhbətləşdik:**

***- Qarşıdan payız fəsli gəlir. Soyuqdəymədən qorunmaq, immuniteti gücləndirmək üçün sizcə, hansı təbii üsullardan istifadə məqbuldur?***

- Daha çox arı zəhərindən, arı südündən, baldan, çiçək tozundan, arı məhsullarından, o cümlədən onların qarışığından. Yəni dünyada arı və arı məhsullarından daha gözəl immuniteti gücləndirən əvəzləyici yoxdur. Bilirik ki, yaz-payız aylarında insanlarda təzyiq dəyişməsi, ölüm hadisələri çox olur. Buna görə biz zəlidən istifadə edirik. Dünyada 40 yaşından sonra insanlar qan durulducu həblər istifadə edirlər, hansı ki, həmin həblərin tərkibi turşu mənşəlidir. Bu isə mədənin selikli qişasını yandırır. Nəticədə sonradan mədədə yara əmələ gəlir, qanaxmaya səbəb olur. Qandurulducu həbləri qəbul etdikdən bir-iki gün sonra qanaxma kəssə də, qan sonradan kəskin laxtalanır və infarktın, trombun yaranmasına gətirib çıxarır. Zəli qoyulan insanda 6 ay ərzində infarkt, tromb, insult əmələ gələ bilməz. Buna görə də dünyada zəliyə tələbat kəskin artır. Məsələn, hazırda Amerikada ən bahalı şey zəli və zəli qoydurmaqdır. Eləcə də Avropada. Xoşbəxtlikdən bizim insanlar zəlidən çox qədimdən istifadə ediblər. Yəni insanlarımız zəlinin nə olduğunu bilir və ona görə də ondan geniş istifadə edirlər. Bu baxımdan bizim işimiz asandır.

***- Bizim çöldə, həyət-bacada gördüyümüz zəli tibbə yarayırmı, yoxsa yalnız tibb üçün nəzərdə tutulmuş zəlidən istifadə olunmalıdır?***

- Tibdə istifadə edilən zəli başqadır. Bu zəli mütləq fabrikat şəraitində yetişdirilməlidir və ondan özbaşına istifadə etmək olmaz. Bu işi yalnız mütəxəssis icra etməlidir. Bəzən zəlidən özbaşına istifadə edən insanlar mənə zəng edib soruşur ki, "məni qanaxma aparır, neyləyim" və yaxud "ayağım şişib, nə etməliyəm" və sairə. Əslində zəlinin ilk qoyulma yeri var, yəni bədəni ona öyrəşdirib, müəyyən analizlər aparıldıqdan sonra istifadə etmək lazımdır. Bədən zəliyə öyrəşdikdən sonra onu istənilən yerə, o cümlədən gözə, ağıza, qulağa və s. qoymaq olar. Çox təəssüf ki, bu gün bərbərxanalarda, gözəllik salonlarında, bir sözlə, aidiyyəti olmayan yerlərdə insanlara zəli qoyurlar. Bu olmaz.

***- Bir qədər arı ilə müalicədən danışardınız.***

- Qeyd edim ki, arı ilə müalicə dünyanın 10 ölkəsində var və çox şükürlər ki, bizdə də var və bu işi müvəffəqiyyətlə mən aparıram. Dünyada arıçılıqla bağlı konqreslər təşkil olunanda mən də dəvət edilirəm. Bu yaxınlarda Ankarada möhtəşəm "Doğal-2018" konqresi keçirildi. Mən də dəvətli idim və yeganə olaraq miqren xəstəliyinin müalicəsi barədə çıxış etdim. Beləliklə, dünyada miqren xəstəliyinin yeganə təbii-tibbi üsulla müalicəsini mən aparıram. Miqren xəstəliyi ilə bağlı hansısa həkimə müraciət edəndə bildirir ki, onun müalicəsi yoxdur. Lakin qeyd etdiyim kimi, yeganə mən onu müalicə edə bilirəm. Belə ki, arı və arı məhsulları, qurbağadan istifadə etməklə bu xəstəliyi aradan qaldırıram.

***- Bəs ümumiyyətlə, arı və arı məhsulları hansı xəstəlikləri müalicə edir?***

- Arı və arı məhsulları saçdan tutmuş dırnağa qədər bütün xəstəlikləri müalicə edir. Ümumiyyətlə, arı və arı məhsulları kimyəvi maddələrin müalicə edə bilmədiyi xəstəlikləri aradan qaldıra bilir. Məsələn, zamanında mən özüm revmatizm xəstəliyindən əziyyət çəkmişəm. Arı ilə müalicəyə başladıqdan sonra revmatizm xəstəliyindən birdəfəlik azad olmuşam, o cümlədən bu günə qədər özümü sağlam hiss etmişəm. Onu da əlavə edim ki, dünyada arıçılıqla məşğul olan insanlar ən çox uzun ömür sürənlərdir, onlar xərçəng, qrip, yoluxucu xəstəliklərə tutulmurlar. Burada hikmət arı zəhəri və arı məhsullarıdır. İnsult olmuş adama da arı ilə müalicəni tətbiq etdikdən sonra xəstə aşağı və yuxarı ətraflarını tam hərəkət etdirə bilər. Beləliklə, arı min bir dərdin dərmanıdır.

### "Dünyada sağalmaz xəstəliklər, o cümlədən xərçəng o zaman olmayacaq ki..."

***- Arı sancması hansısa fəsadlara da yol aça bilərmi?***

- O zaman fəsadlara gətirib çıxara bilər ki, mütəxəssis olmadan ondan istifadə olunsun. Bir arının sancması hətta ölümə də gətirib çıxara bilər. Bunun üçün əvvəlcə xəstə üzərində yoxlama aparılır, onun orqanizminin arı zəhərini götürüb-götürmədiyini araşdırırıq, daha sonra işi ciddiləşdiririk. İlk gündən xəstə bunun əhəmiyyətini hiss edir. Elə olur ki, bu ağrıdan sonra xəstə yuxuya düşür, sidik ifrazını saxlaya bilməməsi problemi aradan qalxır, əsəbləri sakitləşir, oynaq ağrılarından azad olur və sairə.

***- Bəs uşaqlara necə, bu üsul tətbiq olunurmu?***

- 5 yaşından yuxarı uşaqlara tətbiq oluna bilir.

***- Uşaqlarda daha çox hansı xəstəliklərdə istifadə edilir?***

- Enurezdə, yəni sidik qaçırma xəstəliyində. Eyni zamanda müxtəlif sinir və oynaq ağrılarında, əsəb xəstəliklərində, o cümlədən immuniteti qaldırmaq üçün istifadə olunur.

***- Məlum olduğu kimi, siz həm də qurbağa ilə müalicə aparırsız. Bu haqda da danışmağınızı istərdik.***

- Qurbağa ilə müalicə çox möhtəşəmdir. 3 min ildən artıqdır ki, Çində bu müalicədən istifadə edilir. Azərbaycanda da yüz illərdir ki, dədə-babalarımız qurbağa ilə müalicələr edib. Lakin həmin müalicələr elmi deyildi. Mən isə qurbağa ilə elmi müalicə aparıram. Daha çox zob, qadınlarda süd vəzilərində olan şiş xəstəliklərində, kişilərdə prostat vəzi, o cümlədən oynaq, əsəb xəstəliklərində istifadə olunur. Qurbağa ilə ilk müalicədən sonra xəstə dərin yuxuya qalır. Belə bir hikmət görməmişdim. Yapon alimləri araşdırma apararaq öyrəniblər ki, qurbağa insan orqanizmində olan zəhəri özünə çəkir. Çünki qurbağa nəm yerdə yaşayır. Onu dərinin üzərində qoyduqda dərideki nəmi alır, toksini özünə çəkir. Eyni zamanda ona olan şüalar vasitəsilə qalxanabənzər vəzin funksiyasını yaxşılaşdırır. Məsələn, qalxanabənzər vəzi müalicə etmək üçün bəzən əməliyyata müraciət edilir. Əməliyyatdan sonra isə ömür boyu dərman qəbul etmək lazımdır. Lakin qurbağa ilə müalicədə buna ehtiyac qalmır. Həmçinin qurbağa insanda saç, dırnaq tökülməsinə də təsir edir.

### "Zəli qoyulan insanda 6 ay infarkt, tromb, insult əmələ gələ bilməz"

***- Qurbağalar da zəli kimi fabrikat üsulu ilə yetişdirilən olmalıdır?***

- Bəli, mütləq. Çox təəssüf ki, bəzən insanlar çöldən, yoldan, sudan tapdıqları qurbağanı boğazlarına bağlayırlar. Doğrudur, bunun müəyyən effektini görürlər. Lakin bu cür olmaz. Ona görə ki, zəhərli qurbağalar effekt verir, lakin onun ziyanı da var. Mütləq tibbi qurbağalardan istifadə olunmalıdır və yalnız mütəxəssis bilir ki, qurbağa nə qədər müddətdə insan bədənində qala bilər, müalicə necə aparılmalıdır. Onu da əlavə edim ki, arı və arı məhsulları, zəli və qurbağadan kompleks şəkildə istifadə etdikdə daha gözəl nəticə verir və sağalmaz xəstəliklərə çarə olur. Ümumiyyətlə, alimlər hələ ki arı, zəli, qurbağa ilə müalicənin 50 faizini öyrənə bilib, bunu tam öyrəndikdən sonra dünyada sağalmaz xəstəliklər, o cümlədən xərçəng olmayacaq.

***- Artıq Bakıdakı restoranlarda da qurbağadan hazırlanmış yeməklər təqdim olunur. Bəs qurbağa ətinin insan orqanizminə nə kimi xeyri var?***

- Qida kimi qurbağa əti çox faydalıdır, möhtəşəmdir, möcüzəlidir. Biz bilirik ki, dünyanın ən uzun ömürlü adamları yaponlardır. Bunu araşdırmaq üçün iki il bundan əvvəl Yaponiyanın paytaxtı Tokioda oldum. Xeyli araşdırma, rəy sorğusu apardım və sonda mənə məlum oldu ki, onların uzun ömür sürməsinin kökündə hərəkətlə, düzgün qidalanma ilə bərabər, dəniz məhsullarından istifadə etmələri dayanır. Dəniz məhsulları çox önəmlidir. Ona görə də qurbağa ilə müalicə və yaxud onun ətindən istifadə etmək ömrü uzadır.

***- Bir qədər öncə düzgün qidalanmadan söz açdınız. Payız mövsümündə necə qidalanmalı, rasionda hansı qidaları qarışdırmamalıyıq?***

- Ümumiyyətlə, yaşadığımız hər bir zamanda qidaları qarışdırmamalıyıq. Uzun ömürlülük və xəstəliklərdən uzaq olmağın bir yolu tək, yəni monoqidalanmadır. Məsələn, əgər ət yeyirsənsə kartofdan istifadə etməməlisən və yaxud kartof yeyirsənsə, ətdən istifadə olmaz. Və yaxud makaron üstündə ət olmaz.

***- Amma bizim milli kulinariyamızda bu cür qarışdırılmış yeməklər çoxdur.***

- Ona görə də qidalanmağımızda təbiiliyə, yaşıllığa, oksigenlə təchizata və fiziki hərəkətə üstünlük verməliyik. Eyni zamanda vaxtlı-vaxtında yatıb-dursaq, o zaman bizim insanlar rahat şəkildə 150 il yaşaya biləcək. Lakin bu gün qidalar qarışdırılır, daha sonra isə üstündən bir stəkan dovğa içilir və hər şeyi heç edir, özündə köp əmələ gətirir, həzm pozulur, ölür. Təsəvvür edin ki, dovğa qatıq və ölmüş göyərtidən ibarətdir. Dovğanı yalnız o halda yemək olar ki, Cənubi Azərbaycandakı kimi bişirilsin. Belə ki, orada ılıq suda göyərtini yuyub, döyəcləyirlər, daha sonra isə onu azacıq qaynadıb qatığa əlavə edirlər. Burada qatıq qaynadılmır. Və yaxud Azərbaycanın bəzi bölgələrində qatıqla göyərtini qarışdırıb bir qədər bulayırlar, qatıq qaynamadan ocaqdan götürürlər. Ümumiyyətlə, süd məhsullarından qatıq, şor, süzmə və digərlərini heç nəyə əlavə etmədən, ayrıca yemək lazımdır. Başqa qidalarla qəbul etdikdə həm həmin qidaların, həm də onun tərkibi gedir. Ən əsası qidalanmada meyvə-tərəvəzə çox üstünlük verməliyik nəinki heyvani qidalara. Heyvani qidaları biz noxud, qozla əvəz etsək, daha yaxşı qidalanmış, sağlam olarıq.

Bəzi insanlar deyir ki, mən heç vaxt meyvədən istifadə etməmişəm. Həmin insanları mən quru ağaca bənzədirəm, onların hüceyrələri ölü olur. Çox təəssüf ki, hazırda bizim insanların ən böyük problemlərindən biri yuxusuzluqdur. Yapon alimləri araşdırıb ki, dərin yuxu axşam saat 10 və 2 arasıdır, 2-5 arası orta yuxudur, 5-dən yuxarı isə yatmasan da olar. Bizdə isə əksəriyyət insan gecə saat 2-dən sonra yatır, yəni dərin yuxunu yatmır. Ona görə də bu gün hamı əsəbidir, yaddaşsızdır, əmək fəaliyyəti azalıb. Ən əsası isə bu gün insanlar hərəkətsizdir, sanki robotlaşıb, ona görə də müxtəlif xəstəliklərdən, o cümlədən oynaq xəstəliklərindən əziyyət çəkir, ömrü qısalır.

Üçüncü problem susuzluqdur. Azərbaycanda insanların 90 faizi susuzluqdan əziyyət çəkir. Təsəvvür edin ki, əgər torpağa su verməsək, necə olar? İnsan da o cürdür. Gün ərzində hər kəs ən azı 3 litr su içməlidir. Yaponlar deyir ki, yuxudan duran kimi 4 stəkan su için. Onun içinə limon, bal da əlavə etmək olar, bunun ziyanı yoxdur. Bu zaman gecə ödə yığılan xaric olur. Yoxsa nə yesən qana keçəcək və sağlamlığına təsir göstərəcək.






**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat".**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 178 (7067) 22 avqust 2018

# Manaf Ağayevin başı dərddə

## Bu dəfə də "supermenlik" etdi, amma...; sənətçi barəsində cinayət işi açıla bilər

**Müğənni Manaf Ağayev həmkarı Mətanətin videosunu yayan adamı "razborka"ya çağırıb diz çökdürüb. Bu barədə yenicag.az saytı məlumat yayıb. Məlumata görə, müğənni yaxın dostu və həmkarı Mətanət Əsədovanın videosunu yayan şəxsi "razborka"ya çağırıb, həmin şəxsin anası oğlunun bağışlanması üçün müğənniyə yalvarıb.**



Bu barədə adıçəkilən sayta açıqlama verən M. Ağayev qeyd edib ki, həmin qadın şəhid anası olduğu üçün onun övladını bağışlayıb: "Mətanətlə 20 ilin dostuyuq. Adamlar bilirdilər ki, Mətanətin dostuyam. Buna görə də mənə zəng etdilər. Hadisəni araşdırmaq üçün həmin adamları çağırıb, bir məkana yığdım. Bəlli oldu ki, həmin videonu yayan oğlanın anası şəhid anasıdır. Anası bizə yalvardı, həmin adam qarşımızda diz çökdü. Biz anaya dedik ki, sən niyə üzr istəməlisən, sən şəhid anasısan, başını dik tut. O yalvardı ki, oğlumu bağışlayın. Buna görə də həmin adamı bağışladıq, məsələni həll etdik".

Qeyd edək ki, bu günlərdə müğənni Manaf Ağayev Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin binasında intihara cəhd edən, gözdən əlil idmançını xilas edərək, onu bu əməldən daşındıra bilmişdi. Şəxsi xilas etdiyi üçün təqdir olunan müğənni bu dəfə "razborka" işinə görə sosial şəbəkələrdə tənqid olunub.

Bəs şəxsi "razborka"ya çağırmaq, qarşısında diz çökdürüb, sonra bu haqda mətbuatda, sosial şəbəkələrdə məlumat yaymaq cinayət əməli yaradırmı?

**Məsələ ilə bağlı hüquqşünas Əsabəli Musatafayev musavat.com-a bildirdi ki, əgər şəxs kimisə hədələyərək dava etməyə çağırırsa, bu, cinayət məsuliyyəti yaradır:** "Bunu artıq araşdırmaq lazımdır ki, o şəxsi hansı hədə və təhdidlə davaya çağırıb, məqsədinə nail olub. Yəqin ki, burada təhdidlər olub ki, digər şəxs davaya gəlib, onun qarşısında diz çöküb, yalvarışlar edib. Hesab edirəm ki, burada cinayət tərkibi var. Əgər bu məsələdə sübut olunmasa ki, davaya çağırmaq təhdidlə, zorakılıqla olmayıb, şəxs barəsində mətbuatda informasiya yayıldığı üçün xüsusi ittiham qaydasında məhkəməyə müraciət edə bilər".

**"Mən heç kəsi "razborka"ya çağırmamışam, əksinə, qarşı tərəf özü məni axtarıb tapıb". Bu sözləri isə müğənni Manaf Ağayev musavat.com-a açıqlamasında deyib. Müğənni bildirib ki, mətbuatda dərc olunan informasiyalarda yanlışlığa yol verilib:** "Kim sübut edə bilər ki, mən demişəm ki, kimisə qarşımda diz çökdürmüşəm?! Mən, sadəcə, bildirmişəm ki, şəhid anası Mətanət xanımın qarşısında diz çökdü, biz isə ona dedik ki, "ay ana, siz niyə bizim qarşımızda diz çökürsüz, biz diz çökərik". Çünki o qadın şəhid anasıdır. Oğlanın ata-anası onu döyürdü ki, "qələt edib". Mən də dedim ki, sizinlə Mətanət xanım danışacaq. Mətanət xanım da dedi ki, "şəhid anasının qarşısında baş əyirəm". Sizcə, mən bilmirəm nə danışıram? İki diplomum var mənim. Mən onları deyil, onlar məni tapıb xahiş ediblər ki, Mətanət xanımla yaxınsız, kömək edin, ondan üzr istəyək. Mən də Mətanət xanımı çağırdım, danışıb barışdılar, ayrıldılar. Yeni qarşı tərəf özü gəlib bizi tapıb, hansı "razborka"dan söz gedə bilər? Mən niyə həmin şəxsi döyüb, özümü işə salmalıyam? Dövlətə şikayət edirsən, özü həll edir. Mənim 55 yaşım var, uşaq deyiləm ki, kimisə döyüb, polisə düşüm".

Qeyd edək ki, sosial şəbəkələrdə müğənni Mətanət Əsədovanın içki içərkən çəkilmiş videosu yayılıb. Görüntüdə M.Əsədova bir neçə üzü görünməyən kişi ilə bir masada əyləşib. Həmin şəxslər içkinin təsirindən söyüşlər söyüblər. Sosial şəbəkə istifadəçiləri müğənninin spirtli içki içməsini tənqid edib. Video yayıldıqdan sonra həmkarları Mətanət Əsədovanı müdafiə, görüntünü yayanı isə sərt tənqid ediblər.

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**



## Bu günün havası - xəbərdarlıq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən müsavat.com-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 18-23, gündüz 25-30, Bakıda gecə 20-22, gündüz 28-30 dərəcə isti olacağı gözlənilir.**

Avqustun 22-də şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 24-25 dərəcə isti təşkil edəcək. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Bununla əlaqədar çimərliklərdə əlverişli hava şəraiti müşahidə olunacaq.

Rayonlarda avqustun 22-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam Böyük və Kiçik Qafqazın bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22, gündüz 29-34, dağlarda gecə 10-15, gündüz 17-22 dərəcə isti təşkil edəcək. Avqustun 22-si axşamdan 24-ü axşamadək Böyük və Kiçik Qafqazın bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı ehtimalı var.

# Şadlıq saraylarında "ciblərinizi möhkəm tutun" elanı

## Mahmud Hacıyev: "Toya gələnlər ciblərini tikməlidir?"

**Şadlıq saraylarında son vaxtlar maraqlı bir elan eşidilməkdədir. Tamada toyun vur-çatlasın məqamında musiqiçilərə göz vurub sakitlik yaradır, mikrofonla elan edir ki, bəs bu zalda itən əşyaya, pula və qızıl-zinət əşyalarına görə restoran rəhbərliyi, personalı cavabdeh deyil.**



Oğurluq xəbərləri xronikasında şadlıq saraylarında bu tip cinayətlərin sədası az deyil. Şadlıq saraylarında oğurluq edənlər sırasında hətta xalq artistlərinin adı belə çəkilir. Əvvəllər məhkum olunmuş şəxslərin şadlıq saraylarını özlərinə "iş yeri" seçmələri də kimsəyə sirr deyil. Məsələn, Sumqayıt Şəhər Polis İdarəsi (ŞPİ) 1-ci Polis Bölməsi (PB) əməkdaşlarının həyata keçirdikləri əməliyyat nəticəsində şəhər ərazisində ictimai iaşə obyektləri, restoran və şadlıq evlərində keçirilən toy mərasimlərində qonaq kimi iştirak edən insanların mobil telefonlarını oğurlayan əvvəllər məhkum olunmuş Elman Ələkbərov saxlayıblar. Tutulandan sonra Elman Ələkbərov etiraf edib ki, Sumqayıt ərazisində yerləşən şadlıq evlərində keçirilən toy məclislərində 11 nəfərin mobil telefonunu oğurlayıb. E.Ələkbərov oğurladığı mobil telefonların bir neçəsini şəhər ərazisində tanımadığı şəxslərə satıb. Digər mobil telefonlar isə saxlanılan şəxsin yaşadığı ünvandan aşkar edilərək maddi sübut kimi götürülüb. Ötən il Bakıda şadlıq saraylarından birində baş verən oğurluq əksər mətbu orqanların əsas yazılarından birinə çevrilmişdi. Səbəb xalq artistinin şadlıq evində oğurluqda ittiham olunması idi. Bakı sakini Südabə Zalova iddia edirdi ki, şadlıq evində itirdiyi sırğanı məhz xalq artisti götürüb və qaytarmayıb. Xalq artisti əlbəttə ki, bu ittihamı rədd edirdi. Ortada video da vardı.

Maraqlıdır, şadlıq evlərində tamada vasitəsilə səsləndirilən elan restoran rəhbərliyini, personalını şadlıq sarayında baş vermiş oğurluğa görə məsuliyyətdən azad edirmi?

**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, şadlıq sarayında oğurluğun qarşısının alınması, hadisənin ümumiyyətlə baş verməməsi üçün obyekt sahibi heç bir tədbir görməlidir:** "Vətəndaşın şadlıq sarayında qızıl sırğası, telefonu, pulu və ya digər qiymətli əşyası itibsə, oğurlanıbsa, bununla bağlı vətəndaş məhkəmədə şadlıq sarayına qarşı mülki qaydada iddia qaldıra bilər. Məgər bura Mozambik, Uqandadır ki, toylarda belə elan verilir? Toya gələnlər ciblərini tikməlidir? Və ya çantalarını özlərinə bağlayıb gəzməlidirlər? Kim şadlıq sarayında xanımına deyir ki, çantanı qoltuğundan yerə qoyma? Bu gülünc elandır. Etibarsız bir məkanda toy şənliyinin keçirilməsi haqda fikirlər yaradır".

**Mahmud Hacıyev deyir ki, bu elan hüquqi və məntiqi baxımdan gülməlidir:** "Vətəndaşlar şadlıq saraylarında baş verən oğurluqlarla bağlı hüquq-mühafizə orqanlarına, məhkəmələrə çox vaxt müraciət etmirlər. Şadlıq evi sahibi, toy sahibinin sorğu-sual olunacağı düşüncəsi ilə bunu etmir. Məhkəmələrə də müraciətlərin əksəriyyəti doğru-dürüst olmur deyə qəbul edilmir. Mülki iddianı məhkəmələrin əksəriyyəti düzgün tərtib olunmadığına görə qəbul etmirlər. Çünki iddialarda əsaslandırma çox zəif olur və ya ümumiyyətlə, əsaslandırma olmur. Yeni belə iddialar tərtib edilərkən diqqətli olmaq lazımdır. Kiçik həcmli şadlıq evlərindən gedib belə iddiaların verilməsi elə də perspektivli deyil. Tutaq ki, oğurluq böyük bir şadlıq sarayında baş verib. Hansı ki, həmin şadlıq sarayının 4-5 zalı var, orada eyni zamanda hər bir zalda toy şənliyi keçirilir. Ümumilikdə şadlıq saraylarındakı zallarda 1400-1500 nəfər qonaq iştirak edir. Bu qədər qonağı qəbul edən, yola salan şadlıq sarayının mühafizə, təhlükəsizlik xidmətləri olmalıdır. Çox təəssüf ki, Azərbaycanda şadlıq saraylarının əksəriyyətində mühafizə, nəzarət yoxdur. Məhkəməyə müraciət edəndə əsaslandıra bilər ki, şadlıq evindən böyük gəlir əldə olunur, amma mühafizə təşkil edilmir deyə oğurluq baş verir. Yoldan keçən zala girib oğurluq edir. Polisin mühafizə xidməti ilə müqavilə bağlanması da restoran sahibinə ünvanlana biləcək suallar sırasındadır. Restoran sahibləri mühafizəyə əlavə xərc kimi baxırlar deyə belə hüquq və məntiqi baxımdan gülməli elanlar ortaya çıxır. Toyda çantalarınızı və ciblərinizi möhkəm tutun elanı iştirakçılarda narahatlıq da yarada bilər ki, bura toyxanadır yoxsa quldurxana?"

**Mahmud Hacıyev deyir ki, şadlıq saraylarının belə elanlar verməkdənsə, zəhmət çəkib mühafizə xidmətləri ilə müqavilə bağlamaları daha düzgün və qanuni olardı.**

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Elan**

**Ağdş şəhər sakini Həsənova Məfruzə Mahmud qızına məxsus reyestr №-903012000006-10301 olan çıxarış itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 178 (6067) 22 avqust 2018

# "Qarabağ" üçün pley-off sınağı- Badìbanqanı gözdən qoymayın...

## İnanırıq ki, komanda Tiraspoldan bizi sevindirən nəticə ilə qayıdacaq

**Çempionlar Liqasında mübarizəni dayandıran təmsilçimiz "Qarabağ" bu gün Avropa Liqasının pley-off mərhələsində Tiraspolun "Şerif" klubu ilə qarşılaşacaq. "Şerif"in Ağdam klubu ilə qarşılaşması Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.**






UEFA-nın rəsmi saytının yaydığı xəbərə görə, Tiraspol şəhərində keçiriləcək ilk matçı avstriyalı hakimlər briqadası idarə edəcək. Görüşün əsas hakimi Harald Lexner olacaq. Ona Andreas Heydenrex, Maksimilian Kolbim və Yulian Veynberger kömək edəcəklər. Oyunun hakim-inspektoru ukraynalı Vladimir Petrov, UEFA nümayəndəsi isə finlandiyalı Teuvo Holopaynedir.

**Ötən il "Şerif" Avroliqanın 1/16 mərhələsinə adlayacaqdı, amma...**

Qeyd edək ki, komandalar ötən il ÇL üçüncü təsnifat mərhələsində rəqib olublar. "Qarabağ" Gürcüstanın "Samtredia" klubuna iki oyununun nəticəsinə görə 6:0 qalib gələrək inamla Çempionlar Liqasının III təsnifat mərhələsinə vəsiqə qazandı və rəqibi "Şerif" oldu. Bakıda keçirilən ilk görüşdə "Qarabağ"ın bütün cəhdlərinə baxmayaraq, oyun qolsuz bərabərliklə yekunlaşdı. Tiraspolda keçirilən təkrar görüşdə "Qarabağ"ın sabiq üzvü Dino Ndlovun və Miçelin qollarına rəqib cəmi bir topla cavab verə bildi. Beləliklə, iki oyunun nəticəsinə görə "Şerif" ÇL mübarizəsini dayandırmalı oldu.

"Şerif" bundan sonra Avropa Liqasının pley-off mərhələsində Polşanın "Legiya"sını mübarizədən kənarlaşdıraraq qrup mərhələsinə vəsiqəni təmin etdi. Bu, "Şerif"in Avroliqada dördüncü sınağı idi. F qrupunda yer alan "Şerif" Moskvanın "Lokomotiv", Danimarkanın "Kopenhagen" və Çexiyanın "Zlin" klubları ilə rəqib oldu. "Şerif" öz qrupunda 9 xal toplayaraq beş turdan sonra lider oldu. Amma Danimarka klubu ilə aralarındakı oyunlara və top fərqinə görə ("Şerif" 9 xal toplasa da, qapılara cəmi 4 top vurmuşdu) Moldova klubunu 1/16 mərhələyə adlamasına imkan vermədi.

Klubun baş məşqçisi Qoran Sabliç idman ictimaiyyətinə yaxşı tanışdır. 39 yaşlı xorvatiyalı karyerasında bir çox klublarda, o cümlədən "Hayduk" və Ukraynanın "Dinamo"(Kiyev) klublarda oynayıb. Sabliç Xorvatiya milli komandasının heyətində 4 il çıxış etsə də, parlaq oyunu ilə seçilməyib. Sonra futbolçu karyerasına son qoyan xorvatiyalı bir neçə klubda məşqçi işləyib.




"Şerif"dən əvvəlki iş yeri isə Bosniya və Hersoqovinanın "Şiroki-Brieq" klubu olub. "Şerif"in Avroliqada uğuruna imza atan 2016-cı ilin payızından kluba rəhbərlik edən italiyalı mütəxəssis Roberto Bordin (hazırda "Neftçi"nin baş məşqçisidir) bu ilin aprelin komandadan ayrıldı. Aprel ayında onun istefası rəsmiləşəndən sonra klub aralıq dövr üçün yerli mütəxəssis Viktor Mixaylova həvalə olundu. 2018-ci ilin iyununda klub rəhbərliyi xorvat məşqçi ilə müqavilə imzaladı. Moldova mətbuatı iddia edir ki, xorvatiyalı ilə imzalanmış müqavilənin şərtləri açıqlanmır. Məşqçilər heyətinə həmçinin əvvəl də klubda çalışmış Mirko Xrqoviç və Boris Peyrek daxildir. Sonuncu klubun "fizika"sından-yeni oyunçuların fiziki hazırlığından görəvlidir.



**"Şerif" şəriksiz liderdir**

8 klubun yer aldığı Moldova çempionatında "Şerif"39 xalla liderdir. Bir müddət əvvələ kimi "Şerif"in çempionatda əsas rəqibi paytaxt Kişinyovun "Zimbru" klubu hesab olunurdu. Amma indi "Şerif"i qarabaqara izləyən Orqeyevin "Milsami" klubudur. Qeyd edək ki, son turda "Şerif" liderliyə can atan "Milsami" ilə qarşılaşıb. "Şerif" həmin görüşdə 2:0 hesabı ilə qalib gələrək xal fərqini 7-yə çatdırıb. "Şerif"in 17 turdan sonra 39, "Milsami"nin isə 32 xalı var. "Zimbru" isə 20 xalla 4-cü sırada qərarlaşıb.

**Sabliçin boğazına nə olub?**

Daha bir maraqlı xəbər budur ki, "Qarabağ"la oyun ərəfəsi Qoran Sabliçin səhhətində problem yaranıb. Qol.az saytının məlumatında deyilir ki, "Milsami" ilə oyundan sonra jurnalistlər qarşısına Qoran Sabliç deyil, onun köməkçisi Andrey Korneyenkov çıxıb. Korneyenkov deyib ki, Sabliçin boğazında yaranan problem səbəbindən onu əvəzləyib. Problemin nə qədər ciddi olduğunu deyə bilmərik, amma böyük ehtimalla Sabliç bu gün "Qarabağ"la qarşılaşmada öz yerini alacaq.

**Andrey Korneyenkov Avropa Liqasının pley-off mərhələsindəki bugünkü rəqibləri "Qarabağ" haqda da danışıb. A. Korneyenkov artıq rəqibi müzakirə etdiklərini söyləyib:** ""Qarabağ"ın oyunlarına baxmışıq. Artıq bu komandanı məşqçilər korpusu öz arasında təhlil edib. Ancaq hələlik futbolçulara heç bir məlumat verilməyib. Çünki əsas diqqətimiz "Milsami" ilə oyuna yönəlmişdi".

**Zidi Badibanqa hər oyunda qol vurur**

Ötən yazılarımızda da qeyd etmişdik ki, klubun heyətində həm yerli, həm də əcnəbi futbolçular yer alır. Zənnimcə, "Qarabağ" bu axşam daha çox belçikalı legioner Zidi Badibanqadan ehtiyat etməlidir. Ötən il Tiraspoldakı qarşılaşmada "Qarabağ"ın qapısına yeganə qolun müəllifi olan belçikalı indi yaxşı formadadır və demək olar ki, son oyunlarda meydanı qolsuz tərk etmir. Klubun əsas qapıçısı da xorvat Zvonimir Mikuliçdir ki, o da artıq neçə sezondur ki, "Şerif"in şərəfini qoruyur. Müdafiədə Viktor Olivyera uğurlu oynayır. Yarımmüdafiə xəttində oynayan braziliyalı Jo Santoş da bu gün "Qarabağ" qapısına yol tapmağa çalışacaq. Hücumda Jerson Leal Rodriqes də təhlükəli ola bilər. Güman ki, klub öz meydanında bir il əvvəlki məğlubiyyətin əvəzini çıxmaq üçün bu gün çox çalışacaq.

Qurban Qurbanovun bugünkü qarşılaşmada klubu hansı heyətdə və hansı tapşırıqlarla meydana çıxaracağını demək çətindir. Aydındır ki, "Qarabağ" səfərdən yaxşı nəticə ilə dönməyə çalışacaq. Amma klub son aylar müdafiə futboluna daha çox meylləndiyi üçün tənqidlərə məruz qaldığını da unutmayaq.

İnanırıq ki, həm klub rəhbərliyi, həm komanda üzvləri Tiraspoldan bizi sevindirən nəticə ilə qayıdacaq. "Eşşək arıları"nı qovmaq zamanıdır. "Qarabağ" bunu bir dəfə yaxşı bacarıb.

Uğurlar "Qarabağ"!

❑ **Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**



YENİ MÜSAVAT

Son səhifə

N 178 (7067) 22 avqust 2018



## Qadın tam xoşbəxt olanda problemlər yaranır

Qadınlarla bağlı növbəti maraqlı araşdırma aparılıb. Cənubi Uels Universitetinin psixoloqlarının apardıqları təcrübə zamanı məlum olub ki, zərif cinsin nümayəndələri üçün tam xoşbəxtlik mənfi təsirlərə də yol açır.

Belə ki, xoş əhvali-ruhiyyədə olan qadınlar daha çox öz hisslərinə fikir verirlər. Nəticədə təhlükəsizlik hissi zəifləyir. Başqa sözlə, əhvalı yaxşı olan, özünü çox xoşbəxt sayan xanımlarda həmin an ətraf aləmə, sosial normalara diqqət son dərəcə azalır. Əksinə, qüssə, əsəbilik zərif cinsin nümayəndələrini ətraf mühitin tələblərinə daha ciddi yanaşmağa, daha ayıq-sayıq olmağa vadar edir.

Alimlər 45 tələbəyə ilk olaraq yalançı testlər veriblər. Daha sonra isə onların bir qisminə qorxulu film izlədiblər. Digər qisim isə komediyaya baxıb. Bu an həmin xanımların hisslərini müşahidə edən alimlər üzə çıxarıblar ki, komediyaya baxaraq, əhvali-ruhiyyəsi yüksələn xanımlar oturacaqlarda daha sərbəst oturur və ətraflarına az diqqət yetirirlər. Qorxulu filmlərə baxanlar isə özlərini yığışdırıb ətraflarına daha çox diqqət yetirirlər.

## Ləng xidmət göstərən xanım ofisiantı döydülər

**Çinin Xenyan şəhərindəki bir restoranda ləng qulluq edən və qonaqlardan bir qədər səbirli olmalarını xahiş edən ofisiant sonuncular tərəfindən döyülüb. Bu haqda "Daily Mail" nəşri xəbər verib. Öncə qonaqlardan biri ofisiantın üzünə zərbə vurub. Daha sonra onunla gələn qadın ofisiant qadının saçlarından tutub və başına zərbələr endirib. Həmin iki nəfər qadını döyən vaxt digər qonaqlar da ona stolun üstündəki qab-qacağı atırdılar.**



Ofisiant ciddi zədə almayıb. Baş vermiş bu hücumu polis araşdırır. Restoran sahiblərinin bildirdiyinə görə, hüquq-mühafizə orqanları xuliqanlardan birini artıq yaxalayıb.

2016-cı ildə Amerikanın Dallas şəhərində Meksika restoranlarından birində qonaqlar bir porsiya çips və salsa sousuna görə dava salıblar. Qonaqlar çipsin çox baha olduğunu düşünüblər və qırmızı sousu yaşılla əvəzləyiblər.

## Depressiya uşaqlı qadınları daha çox yaxalayır

**Amerikalı psixoloq Oliver Ceymsin apardığı araşdırmaların nəticələrinə əsasən, uşaqlı qadınlar subay həmkarları ilə müqayisədə özlərini dəyərdən düşmüş kimi sayırlar. Bu isə onların depressiyaya düşməsinə şərait yaradır. Alimin qənaətincə, bu cür qadınlar özlərini peşəkar fəaliyyətdə sınamaqda çətinlik çəkirlər. Bu səbəbdən daha çox uşaqlarının atalarına böyük ümidlər bəsləyirlər. Əgər ailənin gəlirləri aşağı səviyyədədirsə, vəziyyət durmadan gərginləşir. Bu cür valideynlər uşaqlarının gələcəyini düşündükdə hətta paranoya vəziyyətinə çata bilərlər.**

Bu təcrübələrlə bağlı 5000 insan arasında sorğu aparılıb. Sorğu göstərib ki, uşaqlarının tərbiyəsi ilə məşğul olmaq üçün zəruri maliyyə tapmaqda çətinlik çəkən qadınlar varlı həmkarları ilə müqayisədə daha az xoşbəxtdirlər. İldə 20 min funt-sterlinq qazanan qadınların hər 10-dan yalnız 4-ü uşaqların dünyaya gəlməsinin onları xoşbəxt etdiyini söyləyib.





## Poçtalyon nudistlərin kurortuna məktub aparmaqdan imtina etdi

**Amerikanın Florida ştatındakı nudistlər (çılpaqlar) kurortunda qalan insanlar onlara məktub gətirməkdən imtina edən poçtalyondan şikayət ediblər. Bu barədə lenta.ru saytı xəbər verib. Poçtalyonun imtinası üzündən nudistlər aylardır nə məktub, nə də hansısa göndəriş ala biliblər. Ona görə də narahatdılar ki, önəmli göndərişləri qaçırıblar.**

"Poçtalyonun bir devizi var. Orada da nudistlərə xidmət göstərməməklə bağlı heç bir maddə yoxdur. Mən poçt xidmətinin pulunu ödəyirəm və o xidmətin həyata keçirilməsini tələb etmək ən təbii haqqımdır" - narazı sakinlərdən biri deyib.

Nudistlər poçt şöbəsinə bununla bağlı şikayət etsələr də, heç nəyə nail ola bilməyiblər. Onlara bildirilib ki, poçtalyon ona diskomfort yaradan ünvanlara getməməkdə azaddır.

## Qoroskop




**QOÇ** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**BUĞA** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**XƏRÇƏNG** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ŞİR** - Qarşınızda kifayət qədər məsuliyyətli gün durur. Bu səbəbdən riskdən uzaq olun ki, cəhdləriniz boşa çıxmasın. Nahar ərəfəsində perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OXATAN** - Baxmayaraq ki, Ay axşama qədər bürcünüzdə olacaq, bu, fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çinli qız ev tapşırığına görə pəncərədən hoppandı

**Çində yanğınsöndürənlər 14-cü mərtəbədən hoppanan məktəbli qızı xilas ediblər. Lenta.ru saytının xəbərinə görə, qız bu qərarı yerinə yetirilməmiş ev tapşırıqlarına görə verib. İnsident 24 fevralda Fuçjou şəhərində baş verib. 12 yaşlı qız 40 metrə yaxın hündürlükdən yerə dəyib. Amma yerə düşdüyü yerin yumşaqlığına görə qız, ümumiyyətlə, hər hansı zədə almayıb və onu dərhal xəstəxanaya aparıblar.**

Çinin sosial şəbəkə istifadəçiləri qızın bu addımına görə təəssüf hissi keçirib və ehtimal ediblər ki, onu dərslərlə çox yükləyirlər. Çünki onun hətta tətil günlərində belə dərs oxuması bu yüklənmənin səbəbi kimi göstərilir. Bəzi istifadəçilər isə valideynlərin uşağa daha çox diqqət ayırmasının vacibliyini yazıblar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100